RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 249 (8842) CÜMƏ AXŞAMI 18 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# “Dəmir yumruq” yerindədir

## Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənin hərbi təxribatını qətiyyətlə iflasa uğratdı



Xəbər verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 16-da Azərbaycanla dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı genişmiqyaslı təxribatlar törədiblər.

Azərbaycan Ordusunun döyüş postlarına hücum edən erməni hərbi birləşməsinə qarşı təxirəsalınmaz əməliyyat həyata keçirilib. Darmadağın edilərək geri otuzdurulan düşmənin təxribat planı iflasa uğrayıb. Erməni hərbçiləri tərk-silah edilərək saxlanılıb, ordumuz tərəfindən xeyli sayda silah və sursat qənimət götürülüb.

### Ermənistan üçtərəfli Bəyanatı sabotaj etməyə cəhd göstərir

Dövlət sərhədində baş verən bu hadisə bəzi məsələlərə yeni aydınlıq gətirdi. Belə ki, ilk növbədə bir daha aydın oldu ki, ötən ilin 44 günlük müharibəsində darmadağın edilən Ermənistan hələ də məğlubiyyətindən ibrət götürmək və ya işğal siyasətindən əl çəkmək istəmir. İkinci Qarabağ müharibəsindən sonra bölgədə tamamilə yeni reallıqlar yaranıb. Bu reallıqlar həm də Ermənistanın özünə qonşuları ilə münasibətləri normallaşdırmaq, yeni iqtisadi əlaqələr yaratmaq imkanı verir. Üçtərəfli Bəyanatda da bu barədə müddəalar yetərincə öz əksini tapıb. Amma görünən odur ki, ermənilər onilliklər boyu daşıdıqları xəstə təxəyyülü kənara qoymaq istəmirlər.

Elə bu səbəbdəndir ki, sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı prosesə Ermənistan tərəfindən davamlı şəkildə maneçiliklər yaradılır. Bu ölkənin rəsmi dairələri sərhədlərin dəqiqləşdirilməsi proseslərinə üzdə tərəfdar olduqlarını bildirsələr də, reallıq bunun əksini göstərir. Elə noyabrın 16-da dövlət sərhədinin Laçın və Kəlbəcər rayonları istiqamətlərində baş verənlər də Ermənistanın delimitasiya və demarkasiya proseslərinin qarşısını almaq niyyətindən xəbər verir. Lakin buna baxmayaraq, Azərbaycan dövləti öz sərhədlərinin tam bərpa prosesini inamla davam etdirir və ötən ilin noyabrından bəri bununla bağlı ciddi uğurlar əldə olunub.

Xatırladaq ki, Ermənistan tərəfi artıq buna qədər davamlı şəkildə dövlət sərhədinin müxtəlif istiqamətlərində atəşkəsi pozmaqla və təxribatlar törətməklə məşğul idi. Bütün bunlar isə Ermənistanın ötən ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın bəndlərini sabotaj etmək cəhdlərindən irəli gəlir. Hələ bir neçə gün əvvəl Rusiya sülhməramlılarının müvəqqəti olaraq yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinin üzvü tərəfindən Şuşa şəhəri yaxınlığındakı postda xidmət edən hərbçilərimizə qarşı terror aktı törədilmişdi.

Ardı 3-cü səh.

# Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın təxribatı nəticəsində həlak olmuş hərbçilərimizin doğmalarına başsağlığı verib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş hərbçilərimizlə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: “Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş əsgər və zabitlərimizin doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların ailələrinə səbir versin! Yaralıların tezliklə sağalmasını diləyirəm. Uca Tanrı Vətənimizi qorusun!”

# Döyüşlərdə Azərbaycan Ordusunun 7 hərbi qulluqçusu şəhid olub

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun həlak olan hərbi qulluqçularının adlarını açıqlayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla döyüşlərdə şəhid olan hərbçilərimizin adlarını təqdim edir:

- leytenant Niftəliyev Ümüd Oruc oğlu;
- gizir Cabbarov Orxan Hətəm oğlu;
- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əliyev Natiq Yusif oğlu;
- əsgər Ağayev Elçin Mərifət oğlu;
- əsgər Əlizadə Elmin Samir oğlu;
- əsgər Əliyev Elçin Ramil oğlu;
- əsgər Xəlilov Murad Qalib oğlu.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçularımızın yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

Allah rəhmət eləsin!

Döyüşlərdə 10 nəfər hərbi qulluqçumuz yaralanıb.

Noyabrın 16-sı axşam saatlarından etibarən Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyət sabitləşib.

Ermənistanın dövlət sərhədində törətdiyi təxribat və hərbi avantüra tam iflasa uğrayıb.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin suveren ərazilərində xidmətini davam etdirir.

Ermənistanın təxribatı nəticəsində yaranmış gərginliyə və qarşıdurmaya görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# “Ermənistan tərəfinin revanşizm mövqeyindən çıxış edərək hərbi təxribatları davam etdirməsini qətiyyətlə pisləyirik”

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi noyabrın 16-da dövlət sərhədində Ermənistanın törətdiyi hərbi təxribat barədə məlumat yayıb.

AZƏRTAC məlumatı təqdim edir: “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumat verdiyi kimi, 2021-ci il noyabrın 16-da dövlət sərhədində Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun 7 hərbi qulluqçusu şəhid olub, 10 nəfər hərbi qulluqçumuz isə yaralanıb.

Ermənistan tərəfinin revanşizm mövqeyindən çıxış edərək hərbi təxribatları davam etdirməsini qətiyyətlə pisləyirik. Bölgədə vəziyyətin gərginləşməsi və üçtərəfli Bəyanatın icrasına maneələr törədilməsi məsuliyyəti bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir.

Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə qarşı yönələn hər hansı təhdidlər və hərbi təxribatlar bundan sonra da adekvat şəkildə cavablandırılacaqdır.

Allah şəhidlərimizə rəhmət eləsin!”

**Vətən müharibəsindəki şanlı Zəfərimizin birinci ildönümünü böyük qürur hissi və iftixarla qeyd etdik.**

# Zəfər Ordusu ayağa qalxdı

## İlham Əliyevin yaratdığı Qafqazın ən güclü silahlı qüvvələri düşmənin istənilən təxribatını iflasa uğratmağa qadirdir

İkinci Qarabağ savaşı və onun nəticəsi dünyaya praktik şəkildə nümayiş etdirdi ki, Azərbaycan yerləşdiyi regionun siyasi, iqtisadi və hərbi gücüdür. Bu Qələbə Azərbaycanın regiondakı lider və aparıcı dövlət kimi statusunu daha da gücləndirib möhkəmləndirdi.

İşğalçı Ermənistan Azərbaycan qarşısında cəmi 44 gün duruş gətirə bildi. İlham Əliyevin “dəmir yumruq” əməliyyatı erməni faşizminə elə sarsıdıcı zərbələr vurdu ki, rəsmi İrəvan hərbi kapitulyasiyaya getmək məcburiyyətində qaldı.

Ardı 3-cü səh.



# Zəfərin humanizm səhifəsi

## Qələbə münasibəti ilə elan olunan amnistiya minlərlə ailəyə ikiqat bayram sevinci yaşadıb

Prezident İlham Əliyev Vətən müharibəsində qazanılan parlaq qələbənin bir ilini qeyd etdiyimiz bu təntənəli günlərdə həm də minlərlə ailəyə ikiqat bayram sevinci yaşatdı.

Şanlı Zəfərin birinci ildönümü ilə bağlı dövlət başçısı İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilən və parlament tərəfindən qəbul olunan amnistiya aktı tariximizin ən böyük amnistiya aktı kimi humanizm dəyərlərinin, eyni zamanda Azərbaycan dövlətinin başlıca siyasətinin insanpərvərlik üzərində bərqərar olmasının təcəssümüdür.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu bu humanizm ənənələri Prezident İlham Əliyev tərəfindən də böyük həssaslıqla və uğurla davam etdirilir. Mərhəmət və humanizm kimi ali mənəvi keyfiyyətləri daim əldə rəhbər tutan İlham Əliyev bayramlar ərəfəsində, əlamətdar tarixi günlərdə ənənəvi olaraq əfv sərəncamları imzalayır və minlərlə ailəni sevindirir.

Prezident İlham Əliyev tərəfindən və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya aktları Azərbaycanda insan hüquqlarının etibarlı təminatına və demokratikləşməyə xidmət edən dövlət siyasətinin layiqincə davam etdirildiyini göstərir.

Ardı 7-ci səh.

# Regionun neft ixracı arteriyası

## 22 il əvvəl BTC-nin marşrutunu müəyyən edən sənəd imzalanmışdır

*1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında möhtəşəm layihə - Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri qarşısında “yaşıl işıq” yandıran vacib bir saziş imzalandı. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.*

Bax: səh. 5

# Ermənistanın dövlət sərhədində törətdiyi təxribatlarla əlaqədar cinayət işləri başlanıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi təxribatlarla əlaqədar məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir: “Noyabrın 16-da Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə bu ölkənin silahlı qüvvələri 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərini, eləcə də beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq Kəlbəcər və Laçın rayonlarında Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı artilleriya qurğularından atəşə tutub.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən görülmüş tədbirlər nəticəsində dövlət sərhədində Ermənistanın törətdiyi təxribatın qarşısı alınıb.

Bununla belə, dərin təəssüf hissi ilə bildiririk ki, təxribat nəticəsində hərbi qulluqçularımızdan 7 nəfər şəhid olmuş və 10 nəfər yaralanıb.

Şəhid olmuş hərbi qulluqçular:

1) Əliyev Natiq Yusif oğlu;
2) Niftəliyev Ümüd Oruc oğlu;
3) Cabbarov Orxan Hətəm oğlu;
4) Ağayev Elçin Mərifət oğlu;
5) Xəlilov Murad Qalib oğlu;
6) Əliyev Elçin Ramil oğlu;
7) Əlizadə Elmin Samir oğlu.

Həmin faktlarla bağlı Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) və 29, 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə cəhd) maddələri ilə cinayət işləri başlanıb.

Azərbaycan Respublikasının prokurorluq orqanları tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri olan sənədləşdirilmə aparılır və sübutların toplanılması həyata keçirilir.

# Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidə

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

İnanıram ki, Azərbaycan-Oman əlaqələri bundan sonra da inkişaf edəcək, beynəlxalq təsisatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığımız genişlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2021-ci il*

# Latviya Respublikasının Prezidenti zati-aliləri cənab Egils Levitsə

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Azərbaycan-Latviya dostluğu və əməkdaşlığı xoş ənənələrə malikdir. İnanıram ki, ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Latviya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2021-ci il*

# Bakı şəhərinin mənzil-kommunal təsərrüfatının maddi-texniki təchizatının yaxşılaşdırılması ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı Şəhər İcra Hakimiyyətinin mənzil-kommunal təsərrüfatının kommunal təyinatlı texnika ilə təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 18 800 000 (on səkkiz milyon səkkiz yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2021-ci il*

# K.M.Tahirovun 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Kərim Məhəmməd oğlu Tahirov 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2021-ci il*

# Xarici İşlər Nazirliyi Azərbaycanın UNESCO İcraiyyə Şurasına üzv seçilməsi ilə bağlı məlumat yayıb

Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının 2021-2025-ci illər üzrə UNESCO İcraiyyə Şurasına üzv seçilməsi ilə bağlı məlumat yayıb.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, noyabrın 17-də UNESCO Baş Konfransının davam edən 41-ci sessiyası çərçivəsində təşkilatın İcraiyyə Şurasının 2021-2025-ci illər üzrə üzvlüyünə seçkilər keçirilib. Seçkilərdə Şərqi Avropa qrupu üçün ayrılmış üç vakant yerdən birinə Azərbaycan Respublikasının namizədliyi irəli sürülmüşdü. Gərgin rəqabət şəraitində keçən seçkilərdə Azərbaycan Respublikası 143 səs toplayaraq Şuraya üzv seçilib.

"Ölkəmizin namizədliyinin çoxlu sayda dövlət tərəfindən dəstəklənməsi Azərbaycan Respublikasının elm, təhsil və mədəniyyət sahələrinə ayırdığı yüksək diqqətin və mədəni irsin mühafizəsinə nümayiş etdirdiyi diqqətin qlobal miqyasda qiymətləndirilməsinin göstəricisidir.

UNESCO İcraiyyə Şurasına üzvlüyü dövründə Azərbaycan Respublikası xüsusilə inkişaf etməkdə olan ölkələrdə UNESCO-nun mandatının effektiv şəkildə həyata keçirilməsinə öz dəyərli töhfəsini verəcək.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi fürsətdən istifadə edərək Azərbaycan Respublikasının namizədliyinə öz dəyərli dəstəyini göstərmiş bütün UNESCO üzv dövlətlərinə minnətdarlığını bildirir", - deyə məlumatda bildirilib.

## Milli Məclisin iclasında

# Büdcənin sosialyönümlüyü qorunur

Noyabrın 17-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak edən hökumət təmsilçilərini, deputatları və media nümayəndələrini salamlayaraq 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə təbriklərini çatdırıb.

Sonra iclasda "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb.





### DSMF-nin büdcəsi artırılır

Qanun layihəsi barədə məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Azərbaycan vətəndaşlarının, şəhid ailələrinin, Qarabağ əlillərinin, qazilərin, veteranların, aztəminatlı vətəndaşların, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin daxili siyasətinin prioritet istiqamətidir və birinci oxunuşda parlamentin müzakirəsinə təqdim olunan "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi də bu ali niyyəti rəhbər tutaraq tərtib edilib.

Bildirilib ki, qanun layihəsində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2022-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 5 milyard 307 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 429 milyon manat və ya 8,8 faiz çoxdur.

DSMF-nin xərcləri barədə danışarkən komitə sədri fondun gələn il xərclərinin 96,7 faizinin və ya 5 milyard 133 milyon manatının əhaliyə ödənişlər təşkil edəcəyini vurğulayıb. Büdcə layihəsində əmək pensiyalarının sığorta hissəsinin artırılması üçün təxminən 210 milyon manat vəsait nəzərdə tutulub.

Qeyd olunub ki, əmək pensiyalarının orta aylıq məbləğinin 2022-ci ildə 345 manata yüksəldilməsi proqnozlaşdırılıb. Əmək pensiyasının minimum məbləğinin isə 200 manatdan 240 manata qaldırılması nəzərdə tutulub. Növbəti ildə yaşa görə pensiyanın cari ildəki 331 manatdan 41 manat artırılaraq 372 manata, əlilliyə görə pensiyanın 261 manatdan 38 manat artırılaraq 299 manata, ailə başçısını itirməyə görə pensiyanın 263 manatdan 35 manat artırılaraq 298 manata çatdırılması nəzərdə tutulub. Qeyd edilib ki, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də əvəzetmə əmsalının, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti Avropa Sosial Xartiyasının tələblərinə cavab verməklə, 43% olacağı proqnozlaşdırılıb.

2022-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsi üçün 182 milyon manat vəsait nəzərdə tutulub. Bu müavinətlərin ödənilməsi xərclərinin artım tempi bütün növ müavinətlər üzrə proqnozlaşdırılıb. Ən yüksək artım 66,7 faiz olmaqla 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinət növü üzrə müşahidə edilir.

Sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsinin parametrləri barədə məlumat verib.

Fondun gəlirlərinin strukturunu açıqlayan nazir müavini 2022-ci il üçün gəlirlərin 78 faizinin və ya 4 milyard 148 milyon manatının məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalardan formalaşacağını, bunun cari ilin müvafiq göstəricisindən 646 milyon manat və ya 18% çox olduğunu bildirib.

Bildirilib ki, ümumilikdə 2021-ci ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2022-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 25 faiz və ya 333 milyon manat, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 15% və ya 313 milyon manat artımla proqnozlaşdırılıb.

2022-ci ildə fonda dövlət büdcəsindən ayrılan transfertin gəlirlərdə payı 2017-ci illə müqayisədə 16,5 faiz bəndi azalaraq, 38,1 faizdən 21,6 faizə endirilib. Vurğulanıb ki, sosial sığorta haqlarının yığımının proqnoza nisbətən artımı, habelə sosial ödəniş məbləğlərinin qanunvericiliyə uyğunlaşdırılması nəticəsində cari ilin yekunları üzrə fondun ciddi ehtiyat yastığının formalaşması planlaşdırılır.

Anar Kərimov çıxışında fondun fəaliyyət istiqamətləri üzrə ümumilikdə 66 xidmətin elektronlaşdırılması, onlardan 42 xidmətin proaktiv qaydada həyata keçirilməsi nəticəsində ümumilikdə 312 min proaktiv təyinatın aparıldığını vurğulayıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində fondun bütün ölkə üzrə maliyyə və mühasibatlıq işi mərkəzləşdirilərək maliyyə əməliyyatlarına nəzarət gücləndirilmiş, sosial ödənişlərin məmur-vətəndaş təması olmadan bir mərkəzdən şəffaf və operativ təyinatı təşkil olunmuşdur. Həmçinin nazir müavini qeyd edib ki, hazırda ünvanlı dövlət sosial yardımı üzrə maddi-məişət şəraitinin yoxlanılması, habelə ölkə üzrə arxiv işlərinin mərkəzləşdirilməsi istiqamətində aparılan işin ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulub.

Sonra qanun layihəsinin müzakirələri başlayıb. Müzakirələrdə çıxış edən Milli Məclisin komitə sədrləri Hicran Hüseynova, Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlar Elnur Allahverdiyev, Vüqar İskəndərov, Qüdrət Həsənquliyev, Tahir Kərimli, Vahid Əhmədov, Əli Məsimli, Fazil Mustafa, Etibar Əliyev, Jalə Əhmədova, Məlahət İbrahimqızı, Afət Həsənova, Rüfət Quliyev əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi işlərinin davam etdirilməsini təqdir ediblər. Vurğulanıb ki, Azərbaycanın büdcə vəsaitlərində sosial yönümlü xərclərin prioritetliyini saxlaması onu göstərir ki, pandemiyaya və müharibədən yeni çıxmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını qoruyub saxlayıb. Deputatlar ilk dəfə DSMF-yə büdcədən transfertin məbləğinin əhəmiyyətli dərəcədə azaldılmasını müsbət hal kimi dəyərləndiriblər. Millət vəkilləri şəhid ailələrini, qaziləri düşündürən məsələlər, həmçinin işsizliyin azaldılması, pensiyaların, müavinətlərin və əlilliyin təyinatı ilə bağlı fikirlərini, rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Müzakirələrin yekununda "Dövlət Sosial Müdafiə Fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra gündəliyin növbəti məsələsi olan "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən komitə sədri Musa Quliyev diqqətə çatdırıb ki, İşsizlikdən sığorta fondunun büdcəsi keçənilki büdcəsindən 14 faiz çox olmaqla fondun 2022-ci il büdcəsinin gəlirləri və xərcləri bərabər şəkildə - 180 milyon 375 min manat məbləğində müəyyənləşdirilib. Fondun büdcəsinin 75,7 faizinin, yəni 136,4 milyon manatının işsizlikdən sığorta haqları üzrə, 24,3 faizi və ya 43,9 milyon manatının isə cari ilin qalıq vəsaiti hesabına formalaşdırılması proqnozlaşdırlıb.

Komitə sədri qeyd edib ki, xərclərin bütün istiqamətləri üzrə ötən ildən çox vəsait nəzərdə tutulub. Qeyd olunub ki, xüsusən özünüməşğulluq tədbirlərinin təşkilinə 76 milyon 110 min manat məbləğin ayrılması 20 minə yaxın ailənin özünüməşğulluq proqramı ilə əhatə olunmasına şərait yaradacaq.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Prezident İlham Əliyevin islahatlar planına uyğun olaraq məşğulluq xidmətlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində görülən sistemli tədbirlərdən danışıb. 2019-2030-cu illəri əhatə edən Məşğulluq Strategiyasında müəyyən edilmiş əmək bazarının inkişafı, işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətləri üzrə görülən və görüləcək işlər barədə deputatlara məlumat verib.

Qanun layihəsi ilə bağlı komitə sədri Qənirə Paşayeva, deputatlardan Vahid Əhmədov, Sahib Alıyev çıxış edərək fondun ötən dövrdən qalan qalıq vəsaiti, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması, haqqı ödənilən ictimai işlərlə bağlı fikirlərini səsləndiriblər.

Deputatlar "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsini də birinci oxunuşda səsə qoyaraq qəbul ediblər.

### Ehtiyac meyarı və yaşayış minimumu arasında fərq azalır

Qısa fasilədən sonra gündəlikdəki məsələlərin müzakirəsinə keçməzdən əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova Müdafiə Nazirliyinin açıqlaması barədə deputatlara məlumat verib. Spiker bildirib ki, məlumata görə, noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun 7 hərbçisi şəhid olub, 10 nəfər hərbi qulluqçu su isə yaralanıb. Milli Məclis Sədrinin təklifi ilə plenar iclasda şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sahibə Qafarova parlamentin adından şəhid olan hərbi qulluqçuların yaxınlarına dərin hüznlə başsağlığı verib, onlara səbir diləyib və yaralıların tezliklə sağalmasını arzulayıb.

Sonra parlament "Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında" qanunun layihəsinə (birinci oxunuş) baxıb. Sənəd barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O, qanun layihəsində 2022-ci il üçün yaşayış minimumunun ölkə üzrə 196 manatdan 210 manata, əmək qabiliyyətli əhali üçün 207 manatdan 220 manata, pensiyaçılar üçün 162 manatdan 176 manata, uşaqlar üçün 175 manatdan 193 manata qaldırılmasının təklif edildiyini bildirib.

Təqdimatdan sonra qanun layihəsi birinci oxunuşda səsə qoyulub və qəbul edilib.

İclasda növbəti məsələ - "Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən komitə sədri Musa Quliyev bildirib ki, gələn il üçün ünvanlı dövlət sosial yardımının təyini üçün ehtiyac meyarının həddinin 200 manat məbləğində müəyyən edilməsi nəzərdə tutulub. Bu, cari ildəki 170 manat həddindən 17,6 faiz və ya 30 manat çoxdur. Beləliklə, ehtiyac meyarı ilə yaşayış minimumu arasındakı fərq azalaraq 10 manata düşür ki, nəticədə gələcəkdə ehtiyac meyarına ehtiyac aradan qalxmaqla ünvanlı dövlət sosial yardımının təyinatı da qanunvericiliyə uyğun olaraq yaşayış minimumu üzrə aparılacaq. Musa Quliyev deputatları hökumətin bu müsbət addımını dəstəkləməyə çağırıb.

Müvafiq komitələrin də rəyini aldıqdan sonra sədr qanun layihəsini səsə qoyub. Beləliklə, "Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi də birinci oxunuşda qəbul edilib.

Gündəliyin növbəti məsələsi olan "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə də komitə sədri Tahir Mirkişili məlumat verib.

Komitə sədri bildirib ki, qanun layihəsi büdcə zərfinə daxil olan sənədlərdən biridir. Layihə vergi sahəsində olan şəffaflaşma prosesinin dəstəklənməsi, bütövlükdə vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi təşviqi kimi məsələləri özündə ehtiva edir.

Tahir Mirkişili vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergidən yayınma hallarına qarşı mübarizə, vergi güzəştləri və vergi daxilolmaları ilə bağlı istiqamətləri özündə əks etdirən dəyişikliklər barədə məlumat verib.

Komitə sədrləri Qənirə Paşayeva, Musa Quliyev, deputatlardan Razi Nurullayev, Aydın Hüseynov, Fazil Mustafa, Etibar Əliyev, Rəşad Mahmudov qanun layihəsi ilə bağlı çıxışlarında regionlara investisiya qoyuluşlarının vergi yolu ilə təşviqi, iri bazarlara nəzarətin mürəkkəbliyi, bəzi məhsullara diferensial ƏDV-nin tətbiqi kimi məsələləri qaldırıblar, rəy və təkliflərini səsləndiriblər.

Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayeva deputatların qaldırdığı məsələlərə aydınlıq gətirib, sualları cavablandırıb.

Müzakirələrdən sonra "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

İclasda çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, gündəliyin 7-ci məsələsindən 17-ci məsələsinədək olan qanun layihələri az öncə iclasda birinci oxunuşda qəbul edilmiş Vergi Məcəlləsinə dəyişiklik edilməsi barədə məsələ ilə birbaşa bağlıdır. Bu dəyişikliklər faktiki olaraq uyğunlaşdırma xarakteri daşıyır. Burada İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında məsələ istisna təşkil edir. Çünki burada dəqiqləşdirmə həyata keçirilir və dekriminallaşdırma ilə bağlıdır. Belə ki, 500 manata qədər olan pozuntular İnzibati Xətalar Məcəlləsində öz əksini tapır, 500 manatdan yuxarı məbləğdə olan pozuntular isə Cinayət Məcəlləsi ilə tənzimlənir.

Sonra Milli Məclisin komitə sədrləri Tahir Mirkişilinin, Musa Quliyevin, Sadiq Qurbanovun, Siyavuş Novruzovun, deputatlardan Razi Nurullayevin və Qüdrət Həsənquliyevin qanun layihələri barədə fikirləri dinlənildikdən sonra Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" , "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Sosial sığorta haqqında", "Nağdsız hesablaşmalar haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Dövlət satınalmaları haqqında", "Dövlət rüsumu haqqında" qanunlara və Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

### Dövlət icbari şəxsi sığorta sahəsində idarəetmə təkmilləşdirilir

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin 17-ci məsələsindən 22-ci məsələsinədək olan qanun layihələri barədə məlumat vermək üçün Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə söz verib.

Əli Hüseynli bildirib ki, qanun layihələrinə təklif olunan dəyişikliklər "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" ölkə Prezidentinin 2021-ci il 18 may tarixli Fərmanının icrasının təmin edilməsi ilə bağlıdır.

Belə ki, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" və "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" və "Sığorta fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri adları göstərilən sahələrdə qulluq edən şəxslərin dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsinə yönəlib.

Milli Məclisin komitə sədrləri Tahir Mirkişilinin, Ziyafət Əsgərovun, komitə sədrinin müavini Sevinc Fətəliyevanın qanun layihələri barədə fikirləri dinlənildikdən sonra 5 qanun layihəsinin hamısı ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşu barədə məlumat verib. Bildirib ki, bu dəyişiklik vergi orqanlarında xidmət keçən və işləyən işçilərin dövlət icbari şəxsi sığortası məsələlərini dəqiqləşdirir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Milli Məclisin işlər müdiri Firudin Hacıyev Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il üçün xərclər smetası haqqında məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanması üçün 42 milyon 36 min 822 manat vəsait nəzərdə tutulub ki, bu da 2021-ci illə müqayisədə 233 min 578 manat azdır. Xərclər smetasının 82,3 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə bağlı ayırmalar təşkil edir.

Milli Məclisin xərclər smetası ilə bağlı deputatlardan Tahir Kərimli, Razi Nurullayev və Aydın Mirzəzadə fikirlərini bildiriblər.

Azərbaycan Respublikası Hesablama Palatasının 2022-ci il üçün xərclər smetası haqqında isə palatanın sədri Vüqar Gülməmmədov məlumat verib. Bildirib ki, 2022-ci ildə palatanın saxlanılması üçün 10,1 milyon manat vəsait nəzərdə tutulur.

İclasa yekun vuran Milli Məclisin Sədri diqqətə çatdırıb ki, sonuncu iki məsələnin səsverməsi 2022-ci ilin dövlət büdcəsi layihəsinin üçüncü oxunuşda müzakirələrindən sonra keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Azərbaycan UNESCO-nun İcraiyyə Şurasına üzv seçilib

Azərbaycan UNESCO Baş Konfransının 41-ci sessiyası çərçivəsində qurumun İcraiyyə Şurasına üzv seçilib.

AZƏRTAC xəbər verir ki, sessiya çərçivəsində qurumun İcra Şurası üzvlüyünə seçkilər keçirilib. Azərbaycan UNESCO-nun ikinci seçki qrupundan qurumun İcraiyyə Şurası üzvlüyünə namizədliyini irəli sürüb.

Noyabrın 17-də UNESCO Baş Konfransının 41-ci sessiyası çərçivəsində keçirilmiş seçkilərdə Azərbaycan səs çoxluğu ilə İcraiyyə Şurasına üzv seçilib.

Xatırladaq ki, Azərbaycan 2005-2009-cu illərdə də UNESCO İcraiyyə Şurasının üzvü olub.

# Azərbaycan və Almaniya arasında qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb

Milli Məclisin Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nurlan Həsənov Almaniyanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili Mattias Lüttenberqin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Görüşdə Almaniya Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya şöbəsinin birinci katibi, Azərbaycan üzrə kurator Benedikt Qöbel, Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniq, səfirliyin müşaviri Andreas Holt və digər rəsmi şəxslər iştirak ediblər.

# Baş nazirin müavini Şahin Mustafayev Rusiyanın müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərinin rəhbərliyi ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev noyabrın 17-də Rusiya Federasiyasının nəqliyyat-logistika, ticarət və bank sahələrində fəaliyyət göstərən şirkətlərinin rəhbərliyinin daxil olduğu nümayəndə heyəti ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub. Cari ilin 9 ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsinin 6 faiz artdığı xüsusi vurğulanıb. Bu baxımdan müntəzəm şəkildə təşkil edilən qarşılıqlı biznes missiyalarının rolu yüksək qiymətləndirilib.

İkitərəfli səmərəli investisiya əməkdaşlığının önəmi qeyd edilərək yeni birgə layihələrin reallaşdırılmasında qarşılıqlı maraq ifadə olunub. Bildirilib ki, Azərbaycanda Rusiya kapitalı ilə mindən çox şirkət və birgə müəssisə fəaliyyət göstərir. Bu baxımdan Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma və bərpa işlərində iştirakı məmnunluqla vurğulanıb.

İki ölkə arasında nəqliyyat-tranzit sahəsində uğurla davam edən əməkdaşlıq yüksək qiymətləndirilib. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyəti vurğulanıb. Cari ilin 9 ayında dəhliz üzərindən yük daşımalarının həcminin 18 faiz artdığı bildirilərək "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlığın daha da möhkəmləndirilməsinin zəruriliyi diqqətə çatdırılıb.

Görüşdə iki ölkə arasında iqtisadi-ticari, investisiya, nəqliyyat-logistika, maliyyə-bank və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Dəmir yumruq" yerindədir

Əvvəli 1-ci səh.

Noyabrın 9-da isə Ermənistan silahlı qüvvələrinin 60-a yaxın şəxsi heyəti iki hərbi yük avtomobilində Laçın rayonunun Qaragöl gölü istiqamətində hərəkət edərək Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində yerləşiblər. Qəsdən hərbi qarşıdurma yaratmaq məqsədilə erməni tərəfi metal konstruksiyalardan hazırlanmış səbətlərdən istifadə etməklə Azərbaycan Ordusunun sərhədin bu sahəsindəki mövqelərarası yolunu bağlayaraq ərazidə möhkəmlənməyə çalışmışdı.

Görülmüş tədbirlər nəticəsində 60-a yaxın erməni hərbçisi mühasirəyə alınmış, onların bütün hərəkətləri məhdudlaşdırılmış, Ermənistanın hərbi təxribatının qarşısı qətiyyətlə alınmışdır. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan dəfələrlə sülhsevər və ədalətli mövqe nümayiş etdirsə də, Ermənistan öz çirkin niyyətlərindən əl çəkmək istəmir. Həmin vaxt Azərbaycan Müdafiə Nazirliyi bəyan etmişdi ki, əgər buna oxşar təxribatlar gələcəkdə təkrarlanarsa, görəcəyimiz tədbirlər daha sərt və təsirli olacaq.

## Şəhidlərimizin qanı yerdə qalmadı

Azərbaycanın səbri tükənməz deyil. Prezident İlham Əliyev müharibədən sonra Ermənistana bu barədə sərt xəbərdarlıqlarını edib. Vaxtilə bu xəbərdarlıqlardan nəticə çıxarmayan Ermənistan 44 günlük müharibədə güc yolu ilə cəzalandırılmışdı.

Bu il sentyabrın 27-də Anım günü ilə bağlı xalqa müraciətində Prezident İlham Əliyev bir daha Ermənistana xəbərdarlıq edərək demişdi: "Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

Noyabrın 16-da baş verənlər bunu təsdiq etdi. Xəbərdarlıqlardan nəticə çıxarmaq istəməyən Ermənistanın təxribatının qarşısının qətiyyətlə alınması, hücum edən silahlı bölməsinin geri otuzdurulması, onun şəxsi heyətinin və texnikalarının məhv edilməsi göstərdi ki, "dəmir yumruq" istənilən an düşmənin başını əzməyə hazır və qadirdir. Döyüşlərdə məğlubiyyətlərinin qaçılmaz olduğunu görən Ermənistan tərəfi 44 günlük müharibədəki taktikasını işə salaraq dərhal yalan informasiyalar yaymağa başladı. Ölkənin rəhbərliyi isə yenə də telefonlardan sallandı, ordan-burdan kömək istəməyə başladı. Amma bütün bunlar Azərbaycanın Ermənistanı cəzalandırma tədbirlərinin qarşısını ala bilməzdi. Necə ki, 44 günlük müharibədə Azərbaycan Ordusu işğalçılara döyüş meydanında divan tutmuşdu. Bu dəfə də Ermənistan üz tutduğu dövlətlərdən və təşkilatlardan heç bir dəstək ala bilmədi.

Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid olublar. Lakin onların qanı yerdə qalmadı. Düşmən çoxsaylı canlı itkiyə məruz qaldı. O cümlədən döyüşlərdə iştirak edən erməni hərbçilərin bir neçəsi Azərbaycan Ordusu tərəfindən saxlanıldı. Erməni hərbçilərin bir qisminin isə taleyindən xəbər yoxdur. Dünən Ermənistanda hemotologiya mərkəzinin qan üçün donorlara müraciət etməsi də döyüşlərdə çoxsaylı yaralıların olmasından xəbər verir.

Müzəffər Ali Baş Komandan Ermənistanın növbəti hərbi təxribatının qarşısını qətiyyətlə aldı. Noyabrın 16-da baş verən döyüşlərdə Ermənistan bir daha Azərbaycanın "dəmir yumruğ"u qarşısında aciz vəziyyətə düşdü. Respublikamızın ərazi bütövlüyünə qarşı istənilən təhdid və təxribat Ermənistana baha başa gələcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri" üzrə İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Enerji təminatı məsələləri" İşçi Qrupunun videokonfrans formatında növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda İşçi Qrupunun ötən iclaslarında qəbul edilmiş qərarların icrası ilə bağlı yerinə yetirilən tədbirlər nəzərdən keçirilib.

Energetika Nazirliyinin rəhbər vəzifəli şəxslərindən ibarət nümayəndə heyətinin Şuşa şəhərinə səfəri barədə məlumat verilib. Şəhərdə müvafiq binaların istilik təchizatı ilə bağlı verilmiş tapşırıqların icra edildiyi və istilik enerjisi təminatının başladığı qeyd olunub. İsti su təminatı ilə bağlı məsələlərin də həllini tapdığı, bəzi istehlakçılar tərəfindən öz məsuliyyət sahələrinə aid sahələrdə daxili avadanlıqların quraşdırılması işlərinin sürətləndirilməsi istiqamətində tapşırıqlar verildiyi bildirilib.

Müvafiq dövlət qurumlarının nümayəndələri tərəfindən Şuşa, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər rayonlarında enerji infrastrukturunun bərpası və yenidən qurulması ilə bağlı ötən həftə ərzində həyata keçirilən tədbirlər, yarımstansiyaların tikintisi, elektrik xətlərinin çəkilişi, kabellərin yenilənməsi, dayaqların və transformatorların quraşdırılması istiqamətində görülən işlər barədə məlumat verilib. Kəlbəcər və Laçın rayonlarında hərbi hissələrin elektrik enerjisi təchizatı ilə bağlı görülən tədbirlər nəzərdən keçirilib.

"Ağdam-1" yarımstansıyasına artıq ötən həftə gərginliyin verildiyi və test rejimində istismar edildiyi, bu həftə ərzində isə "Ağdam-2" yarımstansiyasına gərginliyin veriləcəyi diqqətə çatdırılıb. Laçın şəhərində hazırda iki yarımstansiyanın işlək vəziyyətdə olduğu, gələcəkdə yeni yarımstansiyanın tikintisinin nəzərdə tutulduğu bildirilib.

Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" su-elektrik stansiyalarının tikintisinə dair görülən işlər müzakirə edilib, birgə texniki komissiyanın növbəti görüşlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə qoşulmanın və məlumat mübadiləsinin vəziyyətinə dair məlumatlar dinlənilib. İşçi Qrupunun üzvü olan aidiyyəti dövlət qurumları tərəfindən sistemə daxil ediləcək müvafiq məlumatların mütəmadi yenilənməsinin və operativliyin təmin olunmasının vacibliyi vurğulanıb.

İclasda İşçi Qrupunun fəaliyyətindən irəli gələn digər cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Zəfər Ordusu ayağa qalxdı

Əvvəli 1-ci səh.

## Erməni əsgəri yenə də silahını, bayrağını atıb şərəfsizcəsinə qaçır

Amma son günlər dövlət sərhədində baş verən erməni təxribatları onu deməyə əsas verir ki, 44 günlük savaşda başından aldığı zərbə bu ölkəyə yaxşı dərs olmayıb.

Noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları yenə də Azərbaycan Ordusunun üstünlüyü ilə nəticələnib. Düzdür, bu təxribatlar sayəsində yenə də şəhidlərimiz və yaralılarımız oldu. Amma son təxribatlar və ordumuzun adekvat cavabı bir daha göstərdi ki, yüksək döyüş ruhlu Azərbaycan əsgəri Vətən uğrunda canını fəda etsə də, ağır yaralansa da, torpağından bir addım belə geri çəkilmir. Necə ki, 44 günlük haqq savaşımızda torpaqlarımızın işğaldan azad olunması istiqamətində gedən döyüşlərdə ölümün gözünə dik baxaraq düşmən üzərinə şığıyan igidlər bu gün də savaş meydanında əsl qəhrəmanlıq nümayiş etdirirlər. Bu, bir daha Azərbaycan əsgərinin mətinliyinin, vətənpərvərliyinin əyani təzahürüdür.

Azərbaycan hərbçilərinə pusqu qurub təxribat törədən erməni əsgəri isə ilk həmlədə qorxusundan mövqeyini, silahını, bayrağını atıb şərəfsizcəsinə qaçır və ya ağ bayraq qaldıraraq təslim olur. Çünki Azərbaycan hərbçisinin nəyə qadir olduğuna 44 günlük Vətən müharibəsində şahidlik ediblər.

Onu da qeyd edək ki, baş verən təxribatdan sonra Azərbaycan Ordusu hər zaman olduğu kimi cavab tədbirləri görüb. Əvvəlcə qarşı tərəfin hərəkəti məhdudlaşdırılıb, onun qüvvə və vasitələrinə zərər vurulub. Görülmüş qəti tədbirlər nəticəsində Ermənistana məxsus tank əleyhinə qurğu və minaatan məhv edilib. Erməni hərbçilər tərksilah edilərək saxlanılıb, xeyli sayda müxtəlif çaplı silah və külli miqdarda sursat qənimət kimi ələ keçirilib.

## Bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

Həmin gün baş verən erməni təxribatı siyasi müstəvidə də ciddi narahatçılıq doğurub. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı qeyd edib ki, yaranmış vəziyyətə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Çünki dəfələrlə Ermənistan tərəfi Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atıb və son genişmiqyaslı hücum noyabrın 16-da baş verib. Dövlətimizin başçısı Azərbaycan tərəfdən yaralıların olduğunu qeyd edərək Ermənistanın təxribatlarına adekvat cavab verildiyini vurğulayıb.

Müdafiə Nazirliyinin yaydığı məlumatda bilririlir ki, Ermənistanın dövlət sərhədində törətdiyi təxribat və hərbi avantüra tam iflasa uğrayıb. Hazırda Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyət sabitləşib. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin suveren ərazilərində xidmətini davam etdirir.

Lakin hər zaman təxribatlar törədən Ermənistana etibar qalmayıb. Üçtərəfli Bəyanatın müddəalarını yerinə yetirməkdən Boyun qaçırmaq bir yana, təxribatlarından da əl çəkməyən bir ölkə ilə yalnız güc dili ilə danışmaq lazım gəlir.

Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsinin birinci ildönümündə Zəfər qalamızda hərbçilər qarşısında çıxış edən Ali Baş Komandan məhz bu məsələyə toxunaraq vurğulamışdı ki, revanşist qüvvələrin istənilən təxribatına adekvat cavab veriləcək. Onların başı elə əziləcək ki, bir daha özlərinə gələ bilməyəcəklər.

Düşmənin son təxribatlarından görünür ki, hələ də məğlub ölkə aldığı dərsdən nəticə çıxarmayıb. Bütün bu proseslər isə yalnız Ermənistanın əleyhinə işləyir.

Çünki diplomatik müstəvidə Azərbaycana uduzan Ermənistan hərbi müstəvidə də bizdən qat-qat zəifdir. Azərbaycan ötən illər ərzində dünyanın ən güclü ordularından birini yaradıb. Son 18 ildə ölkəmizə 5-ci nəsil müasir silahlar, sursatlar, texnikalar gətirilib və hərbçilərimiz tərəfindən bu texnikalar layiqincə istifadə olunub. İkinci Qarabağ müharibəsi bunun əyani sübutudur. Azərbaycan Ordusu XXI əsrin savaşını gerçəkləşdirərək dünyaya gücünü nümayiş etdirib. Ordumuzun yeni müharibə modeli, yeni aparılan əməliyyatlar və savaşın nəticəsi bu gün də dünyanın hərbi analitikləri tərəfindən müzakirə olunmaqdadır. Bəzi mütəxəssislərin "smart müharibə" adlandırdıqları bu savaşda çox düzgün hesablama və konkret şərait üçün unikal bir strategiya tətbiq edilib. Pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoyub. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsl savaşı kimi dəyərləndirilir.

Vətən müharibəsindən sonra müntəzəm olaraq qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələri, o cümlədən Pakistan Ordusu ilə "3 qardaş" birgə hərbi təlimlər, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı.

Stokholm Beynəlxalq Sülh Problemlərinin Tədqiqi İnstitutunun 2019-cu il hesabatına görə, Azərbaycan ÜDM-də hərbi xərcləri 4 faiz və ondan çox olan 10 dövlət sırasında yer alıb. 2019-cu ilin göstəricilərinə əsasən, dünyanın ən güclü orduları sırasında Azərbaycan 52-ci, Ermənistan isə 96-cı mövqedə olub. Hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yeri tutub. Dəniz gücü üzrə isə Azərbaycan 67-ci yerdə, Ermənistan isə dəniz ölkəsi olmadığından bu sahədə imkanları sıfra bərabər hesab olunub. Tank gücü üzrə isə Azərbaycan 32-ci, Ermənistan isə 2 dəfədən də aşağı göstəriciyə malik olub. Fərq göz qabağındadır. Əlavə şərhə ehtiyac yoxdur.

Əminliklə vurğulaya bilərik ki, 44 günə Azərbaycan qarşısında diz çökən Ermənistan növbəti dəfə belə təxribat törədəcəkcə, çox ağır və sarsıdıcı zərbə alacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# 2022-ci ilin dövlət büdcəsi strateji inkişaf hədəflərinin reallaşmasına mühüm töhfə verəcək

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Büdcə sistemi haqqında" qanunun 12-ci maddəsinə müvafiq olaraq "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin Milli Məclisdə müzakirəsi keçirilir.



Milli Məclisin İqtisadi Siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında hökumət üzvlərinin və müvafiq dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə qanun layihələri geniş müzakirə olunmuşdur. Milli Məclis Sədrinin göstərişi ilə ilk dəfə olaraq iclasa Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların, o cümlədən müxalifət partiyalarının sədrləri və nümayəndələri dəvət olunmuş, onlara peşəkar müzakirələr üçün geniş imkanlar yaradılmışdır. Belə bir imkan büdcə zərfinə daxil olan layihələrin ətraflı müzakirəsinin inklüzivliyini təmin etməklə yanaşı, dövlət başçısı tərəfindən ölkədə aparılan siyasi islahatların ali qanunverici orqanda reallaşmasının növbəti bir addımı olmuşdur.

2020-ci il 8 noyabr tarixdə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu torpaqlarımızı azad edəndən sonra işğaldan azad edilmiş ərazilərin geniş təhlili aparılmışdır. Təhlillər ölkəmizin bu ərazilərdə 3 böyük faciə ilə üz-üzə qaldığını müəyyən etmişdir. Urbisid - şəhər və kəndlərimizin məhv edilməsi, kultosid - mədəniyyət abidələrinin məhv edilməsi, ekosid - təbiətin və ekologiyanın məhv edilməsi faciələri hazırda dünyanın ən böyük faciələrindəndir. Cari ildə Azərbaycan dövləti bu faciələrin aradan qaldırılması üçün sürətli işlərə başlamış, qısa müddət ərzində xeyli işlərin görülməsinə nail olunmuşdur.

Ərazilərin minalardan təmizlənməsi, bərpa və yenidənqurma işlərinin aparılması, lazımi infrastrukturun yaradılması, öz doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün lazımi şəraitin təşkil edilməsi istiqamətində miqyaslı işlər davam etməkdədir. Qısa müddət ərzində Şuşada mədəniyyət abidələrinin bərpası, Füzuli Beynəlxalq Hava Limanının, yol infrastrukturunun işə düşməsi qurucu niyyətimizin, iradəmizin və gücümüzün yenidən bütün dünyaya nümayişi oldu.

2021-ci ildə əksər ölkələr tərəfindən geniş vaksinasiya tədbirlərinin həyata keçirilməsi, karantin rejiminin çevik şəkildə idarə edilməsi, fiskal dəstək paketlərinin davam etdirilməsi, dünya bazarlarında tələbin bir qədər genişlənməsi ilə əmtəə qiymətlərinin artması - dünya iqtisadiyyatının tənəzzüldən çıxaraq bərpa dövrünə keçməsinə imkan yaratmışdır. Belə ki, 2020-ci ildə 3 faizdən çox azalan qlobal ÜDM-in 2021-ci ildə 5.9 faiz artacağı proqnozlaşdırılır. Bununla belə, yeni infeksiya dalğalarının mövcudluğu, vaksinlərin əldə olunamsına qeyri-bərabər çıxış, qlobal təhcizat zəncirində qırılmalar və gecikmələr, yüksələn borc və inflyasiya göstəriciləri iqtisadi inkişafın qarşısında əsas təhlükələr kimi qalmaqdadır.

Dünyanın aparıcı maliyyə təşkilatlarının proqnozuna əsasən, müxtəlif ölkələr üzrə bərpa prosesinin sürəti - peyvəndləmə səviyyəsindən, səhiyyə sisteminin durumundan, iqtisadiyyatın strukturundan və diversifikasiya səviyyəsindən, fiskal dəstək tədbirlərinin səmərəlilik dərəcəsindən asılı olacaqdır. Bir sıra nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən birgə təsdiq olunan plana əsasən pandemiya ilə effektiv mübarizənin davam etdirilməsi üçün hər bir ölkə üzrə əhalinin 2021-ci ilin sonunadək minimum 40 faizi tam vaksinasiya olunmalıdır. (Azərbaycan üzrə bu göstərici artıq 44 faizdən çoxdur). Təhlillərə görə pandemiya dövründə dünya ölkələrində səhiyyə və təhsil sisteminin müasir tələblərə uyğun inkişaf etdirilməsi, investisiyaların rəqəmsal texnologiyalar və yaşıl iqtisadiyyata yönəldilməsi, inklüziv cəmiyyətin və iqtisadiyyatın təkmilləşdirilməsi mühüm roy oynayacaqdır. Bu mənada Azərbaycanda rəqəmsal transformasiyanın, Qarabağ və Şərqi Zəngəzurda yaşıl iqtisadiyyatın inkişaf prioriteti kimi seçilməsi ölkəmizə xeyli üstünlük qazandıracaqdır.

2021-ci ildə dövlət büdcəsinin icrası və aparılan uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizin cari ilin sonuna kimi ÜDM-in real artımının neftin bir barelinin orta illik qiymətinin 50 dollar təşkil edəcəyi ssenarsində 5.1 faiz, o cümlədən qeyri-neft sektorunun real artım tempinin 6 faiz olacağı proqnozlaşdırılır. Qeyd etmək istərdim ki, bu ilin 10 ayının göstəricilərinə görə neftin bir barelinin orta illik qiyməti 68 dollar təşkil etmişdir. Ümumiyyətlə, 2021-ci il üzrə dinamik artım tempinin, həmçinin büdcə gəlirlərinin və xərclərinin icrasında qarşılıqlı nisbətin qorunub saxlanılması, büdcə kəsirinin proqnozlaşdırılan səviyyədən xeyli aşağı olması, tədiyyə balansı hesablarında müsbət dinamikanın qorunması, qeyri-neft ixracının və qeyri-neft vergi daxilolmalarının əhəmiyyətli artması, makroiqtisadi sabitlik 2022-ci ilin dövlət büdcəsinin planlaşdırılmasında mühüm baza rolunu oynamışdır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində aparılan müzakirələr zamanı biz əsasən aşağıdakı 5 sualın cavabını tapmağa çalışdıq.

I. Təqdim edilmiş büdcə layihəsi ölkəmizin cari və strateji inkişaf hədəflərinə, iqtisadi siyasətinə və qarşısında duran çağırışları dəf etməyə xidmət edirmi?

- Təhlillər və müzakirələr göstərdi ki, təqdim edilən layihədə "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər"in ümumi istiqamətləri nəzərə alınmış, bu istiqamətlərin dəstəklənməsi üçün maliyyə imkanları yaradılmışdır. Eyni zamanda növbəti ildə neftin bir barelinin orta illik qiymətinin 50 dollar, ÜDM-in real artım tempinin 3.9 faiz, qeyri-neft sektorunun ÜDM-də payının 70 faiz, inflyasiyanın orta illik səviyyəsinin 4 faiz, orta aylıq əməkhaqqı artımının 8.7 faiz olacağı ilə bağlı göstərilən hədəflər real hesab edilmiş və büdcə layihəsinin bu hədəflərə xidmət edəcəyi müəyyən edilmişdir. Milli Prioritetlərə uyğun olaraq yaradılacaq "2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın dövlət büdcəsinə təsiri sənəd qəbul olunduqdan sonra qiymətləndiriləcəkdir.

Eyni zamanda dövlət başçısı tərəfindən aparılan islahatların və onun tərəfindən yaradılan geosiyasi reallıqların nəticəsində inkişaf potensialının daha böyük olacağı, bu potensialin isə büdcə gəlirlərinin artımına müsbət təsirinin güclənəcəyi qənaətindəyik.

Yekun olaraq, 26.8 milyard manat gəlir və 29.9 milyard manat xərc ilə təqdim olunmuş dövlət büdcəsi layihəsinin ölkəmizin cari və strateji inkişaf hədəflərinə, iqtisadi siyasətinə və qarşısında duran çağırışları dəf etməyə xidmət etmək iqtidarında olacağı qənaətindəyik.

II. Büdcə layihəsi ilə birlikdə təqdim edilmiş iqtisadi və sosial inkişaf proqnozları real imkanlara və fürsətlərə əsaslanırmı?

- Təqdim edilmiş büdcə zərfində ÜDM-in növbəti il və sonrakı 3 il ərzində orta hesabla hər il 4 faiz, qeyri-neft sektorunun 5.1 faiz, qeyri-neft sənayesinin 8.2 faiz, kənd təsərrüfatının 4 faiz, turizm və ictimai iaşənin 32 faiz, informasiya və rabitə sektorunun 11.3 faiz, qeyri-neft sektoru üzrə əsas kapitala qoyulan investisiyaların 7 faiz artması proqnozlaşdırılmışdır. Eyni zamanda bu dövr ərzində əhalinin gəlirlərinin 4 faiz orta illik real artması, xarici dövlət borcunun isə azalması proqnozlaşdırılır. İndiki dövrdə proqnozlaşdırmada qeyri-müəyyənlik ehtimalının yüksək olduğunu qəbul edərək təqdim edilmiş rəqəmləri qənaətbəxş hesab edirik.

Eyni zamanda kənd təsərrüfatı, özəlləşdirmə, xarici investisiyaların və xüsusilə də özəl investisiyaların cəlb edilməsi istiqamətləri üzrə əlavə potensialın olacağını da düşünürük.

III. Büdcə gəlirlərinin formalaşmasında mövcud və gələcək imkanlar nə dərəcədə nəzərə alınıb?

- Cari ildə iqtisadiyyatın proqnozlaşdırıldığından xeyli artıq tempdə və həcmdə artması, dövlət büdcəsi gəlirlərinin, xüsusilə də vergi və gömrük rüsumu gəlirlərinin proqnozdan xeyli artıq daxil olması 2022-ci il dövlət büdcəsi gəlirlərinin planlaşdırılması üçün əsas baza rolunu oynamışdır. Buna görə də hesab edirik ki, dövlət büdcəsi gəlirlərinin 2021-ci ilin təsdiq olunmuş göstəricilərinə insbətən 1.389 milyon manat artıq, o cümlədən vergi gəlirlərinin 1.570 milyon manat, gömrük gəlirlərinin 360 milyon manat artıq proqnozlaşdırılması real imkanlara uyğundur. Eyni zamanda neftin bir barelinin 2022-ci ildə orta illik qiymətinin 65-75 dollar olacağı proqnozlarını da nəzərə alsaq, büdcə gəlirlərinin icra edilməsində münbit şəraitin olacağına inanırıq.

Qeyd etmək istərdim ki, təqdim olunmuş sənədlərdə fiziki və hüquqi şəxslərin 2022-ci ildə büdcəyə daxil olacaq vergi və rüsumlardan azad olmalarının həcminin 5.5 milyard manata çatacağı göstərilir ki, bu da büdcənin qeyri-neft gəlirlərinin 43 faizinə bərabər olacaqdır. Bu rəqəm dövlətin dolayı yolla iqtisadi subyektlərə və vətəndaşlara etdiyi böyük dəstəyin mühüm göstəricisidir.

IV. Büdcə xərclərinin planlaşmasında sosial siyasət, təhlükəsizlik, iqtisadi inkişaf kimi dövlət siyasətinin əsas xətləri nə dərəcədə dəstəklənir?

- Hesab edirik ki, dövlət büdcəsi xərclərinin 2021-ci ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 1.336 milyon manat artırılması ölkədə aparılan sosial-iqtisadi inkişaf strategiyasına uyğundur. Sosial xərclərin ilk dəfə olaraq dövlət büdcəsi xərclərinin 46.4 faizini təşkil etməsi, təhsil, səhiyyə, sosial müdafiə, müdafiə və təhlükəsizlik kimi prioritet xərc istiqamətləri üzrə xərclərin artırılması bu sahələrdə aparılan dövlət siyasətinin maliyyə təminatının yaradılmasına xidmət edir. Eyni zamanda Azərbaycan Prezidentinin sosial ödənişlərin artırılması üçün imzaladığı sərəncamın maliyyə təminatı üçün büdcədə 1.441 milyon vəsaitin nəzərdə tutulması 1.6 milyona yaxın vətəndaşın sosial rifahına birbaşa təsir edəcəkdir. Müharibədən çıxan bir ölkə kimi, Azərbaycanın bir tərəfdən bərpa, quruculuq, təhlükəsizlik məqsədləri üçün xərcləri artırması qanunauyğun olsa da, əhalinin maddi rifah halını yaxşılaşdırmaq üçün sosial xərcləri əhəmiyyətli dərəcədə artırması dövlət başçısının ali sosial siyasətinin ən bariz inikasıdır.

V. İnflyasiyanın hədəflənməsi kimi pul siyasətinin həyata keçirilməsi və antiinflyasiya tədbirləri imkanları nə dərəcədə genişdir və bizə bu nə vəd edir?

- Son bir ildə dünya ərzaq qiymətinin 30 faizdən çox qalxması, pandemiya dövründə dövlət xərclərinin artması və təklifin ləngiməsi fonunda inflyasiyanın güclənməsini bu sahədə ciddi çağırış kimi qəbul edirik. Azərbaycan manatının məzənnəsi sabit qalsa da, cari ildə inflyasiyanın sürətlənməsini müşahidə edir və bu məsələdə xarici faktorların təsirini görürük. Bu istiqamətdə aparılan pul-kredit siyasətinin ümumi konturlarını dəstəkləyir, hədəflərin düzgün seçildiyinə inanırıq. Eyni zamanda inflyasiyanın hədəflənməsi siyasətinin daha da zənginləşməsinin, bütün alətlər üzrə daha çevik qərarların qəbul edilməsinin vacibliyini qeyd edir, qiymət, yoxsa qıtlıq dilemması qarşısında qıtlığın qarşının alınmasını daha doğru hesab edirik. Bu mənada Azərbaycan Prezidentinin dövlət ehtiyatlarının yaradılması ilə bağlı sərəncamının sürətlə icra edilməsini vacib sayır və bunun üçün dövlət büdcəsində maliyyə imkanlarının yaradıldığı qənaətindəyik.

2022-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3056 milyon manat məbləğində nəzərdə tutulur. Kəsirin həcmi 2021-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 53 mln. manat azdır. Dövlət büdcəsinin kəsirinin maliyyələşməsində dövlət əmlakının özəlləşməsindən daxil olan, daxili bazarda yerləşdiriləcək dövlət istiqrazları hesabına cəlb ediləcək vəsaitdən istifadə edilməsinin planlaşdırılması tərəfimizdən də müsbət qəbul edilmişdir. Eyni zamanda ölkədə qiymətli kağızlar bazarının inkişaf etdirilməsi üçün yeni addımlara və alətlərə ehiyacın olduğuna da inanırıq.

Nəticəəsaslı büdcə tərtibi mexanizminə keçid prosesinin davam etdirilməsinin nəticəsi kimi büdcə xərclərinin funksional təsnifatının "Təhsil", "Kənd təsərrüfatı" və "Ətraf mühitin mühafizəsi" pilot bölmələrinin sektor strateji planları və həmin planlara uyğun olaraq Ortamüddətli Xərclər Çərçivəsi hazırlanması və bu çərçivədə daha çox büdcə xərclərinin planlaşdırılması təqdirəlayiq haldır. Ümumiyyətlə, düşünürük ki, nəticə əsaslı büdcə mexanizmlərinin inkişaf etdirilməsi, pilot sahələrin maliyyə və planlama davranışlarının təkmilləşdirilməsi dövlət büdcəsinin dayanıqlığını möhkəmlədəcək ən mühüm amillərdəndir.

Qanun layihəsinə dair izahatda fiskal risklər barədə məlumatların verilməsini mühüm və təqdirəlayiq hal hesab edirik. Eyni zamanda hesab edirik ki, qeyri-standard vəziyyətin hakim kəsildiyi bir dövrdə doğru və çevik qərarların qəbulu mexanizmi məlumat bolluğu, çox ssenarilik və geniş təhlillərin aparılmasını tələb edir. Bu mənada qabaqcıl dünya təcrübəsini öyrənməklə fiskal risklərin səmərəli idarə olunması üçün Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcənin tətbiqinin genişləndirilməsi, həyata keçirilən fəaliyyətlərin performans auditi vasitəsilə qiymətləndirilməsi, fiskal risklərin davamlı monitorinqinin aparılması və ciddi maliyyə-fiskal intizamının təmin edilməsi qarşımızda duran əsas vəzifələrdəndir. Bunun üçün ən effektiv vasitə olan rəqəmsal transformasiyadan, elektron büdcə mexanizmlərindən daha geniş istifadə olunmasını vacib hesab edirik.

Büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlı aparılan müzakirələr əhatəli və məhsuldardır. Dövlət büdcəsi layihəsi 2022-ci il üçün ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaqdır.

*Tahir MİRKİŞİLİ,*
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri*

# Azərbaycan ilə İtaliya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və İtaliya Respublikası Baş Qərargahının nümayəndə heyətləri arasında ikitərəfli əməkdaşlıq planı üzrə qərargah görüşü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Ordusu ilə İtaliya Silahlı Qüvvələri arasında cari əməkdaşlığın vəziyyəti, perspektivlər, eləcə də regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

Sonda növbəti illər üzrə ikitərəfli əməkdaşlığın sahələri və fəaliyyətlər müəyyən edilib.

# Azərbaycan və Almaniya Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr aparılıb

Noyabrın 16-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyi arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, Almaniya tərəfindən isə bu ölkənin Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə müvəkkili Matias Lüttenberq rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti təhlil olunub və əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb. İkitərəfli iqtisadi əlaqələr üçün geniş potensial imkanların mövcud olduğu qeyd edilib.

Həmçinin mədəniyyət, elm və təhsil sahələrində əlaqələr müzakirə edilib, Bakıda Alman Akademik Mübadilə Xidməti (DAAD) və Goethe Mərkəzinin fəaliyyətləri müsbət qiymətləndirilib.

X.Xələfov qarşı tərəfə 44 günlük Vətən müharibəsi və üçtərəfli bəyanatların imzalanmasından sonra bölgədə mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası və orada həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

M.Lüttenberq Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Ölkəsinin Azərbaycanla müxtəlif istiqamətlərdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Tərəflər həmçinin Azərbaycan və Almaniya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Mövlud ÇAVUŞOĞLU:* "Can Azərbaycan tək deyil, biz onu tək buraxmarıq"

"Can Azərbaycan tək deyil, tək də olmayacaq. Azərbaycanı tək buraxmarıq. Ermənistanın təxribatları Azərbaycan torpaqlarında terror hücumudur".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bəhreyndə keçirilən mətbuat konfransında söyləyib.

Nazir deyib: "Regionda sülh və sabitlik üçün birlikdə addımlar atacağıq. Ermənistan bununla razılaşarsa, biz də varıq. Amma Ermənistan belə təxribatlarla yalnız itirəcək".

Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan Ermənistana hərtərəfli sülh sazişi imzalamaq təklifi edib. "Yeni müharibədə qalib gələn və güclü olan tərəf bunu etdi. Ermənistan isə atəşkəsdən dərhal sonra bəzi əsgərlərini Azərbaycan torpaqlarına sızdıraraq əsgərimizə hücum etdi. Bu mövqe yanlışdır", - deyə nazir vurğulayıb.

# Ombudsman Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı nəticəsində hərbçilərimizin şəhid olması və yaralanması ilə bağlı etiraz bəyanatı yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təxribatı nəticəsində hərbi qulluqçularımızın şəhid olması və yaralanması ilə bağlı etiraz bəyanatı yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Dərin təəssüf hissi ilə bildiririk ki, 2021-ci il noyabrın 16-da Ermənistan tərəfinin Azərbaycanın dövlət sərhədində törətdiyi genişmiqyaslı hərbi təxribat nəticəsində Azərbaycan Ordusunun 7 hərbi qulluqçusu şəhid olmuş, 10 nəfər isə yaralanmışdır.

Ermənistan tərəfinin ölkəmizin döyüş postlarını müxtəlif çaplı atıcı silahlardan, o cümlədən qumbaraatanlardan, minaatan və artilleriya qurğularından istifadə etməklə intensiv atəşə tutması nəticəsində hərbi qulluqçularımızın qətlə yetirilməsini və yaralanmasını beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarının, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərinin növbəti dəfə qəsdən pozulması faktı kimi qiymətləndirir və kəskin şəkildə pisləyirik.

Ermənistanın Azərbaycana qarşı qəflətən həyata keçirdiyi növbəti təcavüz aktının dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağıran 16 Noyabr - Beynəlxalq Tolerantlıq Gününə təsadüf etməsi Ermənistanın digər dövlətlərlə və xalqlarla mehriban qonşuluq mühitində yaşamaq istəmədiyini bir daha sübuta yetirir.

Ermənistanın Azərbaycana məxsus torpaqları yenidən işğal etmək məqsədilə hücum əməliyyatlarına başlaması qeyri-tolerant imicə malik olan bu ölkənin beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə və ümumbəşəri dəyərlərə hörmətsizliyinin bariz nümunəsidir.

Son dövrlər təcavüzkar siyasətindən hələ də əl çəkmək istəməyən Ermənistanın hərbi-siyasi rəhbərliyinin cəzasızlıq mühitindən bəhrələnərək Azərbaycanın dövlət sərhədində vəziyyəti daha da gərginləşdirməyə yönəlmiş təxribatçı hərəkətləri regionda yeni münaqişə ocaqlarının yaranmasına, insan hüquq və azadlıqlarının pozulmasına səbəb olmuşdur.

Beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət edərək Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini bir daha işğal etməyə çalışan, regionda ədalətli və dayanıqlı sülhün bərqərar olması üçün ciddi maneə yaradan, məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtmalarının qarşısını alan, fundamental insan hüquq və azadlıqlarını kobud şəkildə pozan Ermənistanın hərbi-siyasi rəhbərliyinin beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsini tələb edirik".

Bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

# Şəhid Natiq Əliyev torpağa tapşırılıb





Dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun şəhid olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əliyev Natiq Yusif oğlu noyabrın 17-də Gəncədə dəfn olunub.



AZƏRTAC xəbər verir ki, şəhidin dəfn mərasimində şəhər icra hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhər sakinləri iştirak ediblər.

Şəhid Əliyev Natiq Yusif oğlu əslən Göyçə mahalının Zod kəndindəndir. Gəncədə boya-başa çatan Natiq ailəli idi. Onun 1 övladı Vətənə əmanət qalıb.

Şəhidimiz Gəncənin Şəhidlər xiyabanında torpağa tapşırılıb.

# Azərbaycanın BMT yanında daimi nümayəndəsi Təhlükəsizlik Şurasının iclasında Ermənistan nümayəndə heyətinin yalan bəyanatlarını ifşa edib

Noyabrın 16-da Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında BMT Təhlükəsizlik Şurasının gündəliyinin "Beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsi: sülhün və təhlükəsizliyin mənafeyi naminə preventiv diplomatiya Birləşmiş Millətlər Təşkilatının bütün əsas orqanlarının ümumi məqsədidir" bəndi üzrə növbəti - 8906-cı iclası olub.




AZƏRTAC xəbər verir ki, iclasda BMT-nin əsas orqanlarının bütün rəhbərləri - Baş katib Antonio Quterreş, Baş Assambleyanın prezidenti Abdulla Şahid, EKOCOS-un sədri Kollen Kelapile, Beynəlxalq Məhkəmənin prezidenti Coan Donahyu, Təhlükəsizlik Şurasının fəaliyyətdə olan üzvlərinin daimi nümayəndələri və bir sıra başqa dövlətlərin nümayəndələri iştirak ediblər. İclasda Azərbaycanın nümayəndə heyəti də iştirak edib və Qoşulmama Hərəkatının sədri kimi Hərəkatın 120 üzvünün adından bəyanatla çıxış edib.

İclas zamanı Ermənistanın daimi nümayəndəsi BMT Təhlükəsizlik Şurasının beynəlxalq platformasından sui-istifadə edərək həqiqətə uyğun olmayan bir sıra kəskin bəyanatlarla çıxış edib, Azərbaycanı, guya, 2020-ci il 9 noyabr tarixli, üçtərəfli Bəyanatda nəzərdə tutulan öhdəlikləri yerinə yetirməməkdə və Ermənistan-Azərbaycan sərhədində gərgin vəziyyət yaratmaqda təqsirləndirməyə çalışıb.

Azərbaycanın daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfir Yaşar Əliyev həqiqi vəziyyəti izah etmək və razılaşmaların pozulmasında, münaqişənin genişlənməsində Ermənistanın təhrikçi rolunu göstərmək üçün ikinci əlavə bəyanatla çıxış edib.

Azərbaycan diplomatı öz cavabında Ermənistanın təhrikçi və yalan iddialarını qətiyyətlə rədd edib və həqiqi vəziyyəti ətraflı təsvir edib. Diplomat qeyd edib ki, Azərbaycan 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən zorla cəlb edildiyi müharibənin dağıdıcı nəticələrindən ciddi zərər çəkib. O vurğulayıb ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın suveren ərazisinin xeyli hissəsi işğal edilib və Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalını pisləyən və onların bu ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını, habelə azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün şərait yaradılmasını tələb edən qətnamələrinin qəbul edilməsinə baxmayaraq, bu ərazi təqribən otuz il ərzində işğal altında qalıb.

Azərbaycanın BMT yanında diplomatik missiyasının rəhbəri bəyan edib ki, işğal zamanı beynəlxalq humanitar hüququn ciddi pozuntuları törədilib, nəticədə on minlərlə dinc sakin qətlə yetirilib, 700 mindən çox azərbaycanlının yaşadığı işğal edilmiş bütün ərazilərdə etnik təmizləmələr aparılıb. Azərbaycanın işğal edilmiş şəhərləri, qəsəbələri və kəndləri yerləyeksan edilib.

Y.Əliyev qeyd edib ki, son 30 il ərzində rəsmi Yerevan Ermənistanın cəzasız qalmasından sui-istifadə edib, bu, ötən ilin payızında Azərbaycana qarşı növbəti təcavüz aktına gətirib çıxarıb. Azərbaycanın fəal döyüş əməliyyatları zonası hüdudlarından uzaqda yerləşən, əhalisi sıx olan şəhərlərinə artilleriya atəşləri nəticəsində yüzlərlə dinc sakin qətlə yetirilib və yaralanıb, həmçinin çoxsaylı mülki obyektlər məhv edilib və ya zədələnib. Diplomat bildirib ki, Azərbaycan Ermənistanın təcavüzünə cavab olaraq beynəlxalq hüquqa və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə tam uyğun surətdə öz xalqını müdafiə etmək və məcburi köçkünlərin öz evlərinə qayıtmalarına şərait yaratmaq üçün işğal altında olan ərazilərin azad edilməsi üzrə əks-hücum əməliyyatına başlayıb.

Azərbaycanın diplomatik missiyasının rəhbəri vurğulayıb ki, otuz il davam etmiş silahlı münaqişə artıq həll olunub. Azərbaycan Ermənistanla dövlətlərarası münasibətləri, o cümlədən sülh müqaviləsi imzalanması vasitəsilə normallaşdırmağa hazır olduğunu bildirib.

Azərbaycanın öz üzərinə götürdüyü bütün öhdəlikləri ardıcıl və vicdanla yerinə yetirdiyini bəyan edən səfir Yaşar Əliyev deyib: "Möhkəm sülhün, inkişafın, tərəqqinin və mehriban qonşuluğun təmin edilməsi Azərbaycanın gələcək barədə təsəvvürünün əsasıdır. Lakin Azərbaycanın təklifinə Ermənistanın cavabı adekvat olmayıb. İki dövlət arasında sərhədyanı zonada Ermənistanın Azərbaycana qarşı noyabrın 16-da törətdiyi silahlı təxribatlara Azərbaycan Silahlı Qüvvələri adekvat cavab verib, Ermənistanın davam edən ərazi iddiaları Ermənistanın dövlət səviyyəsində məsuliyyətsiz hərəkətlərinin və erməni cəmiyyətində hakimiyyət orqanları tərəfindən şüurlu şəkildə qızışdırılan təhlükəli revanşist əhvali-ruhiyyənin birbaşa nəticəsidir".

Azərbaycanın daimi nümayəndəsi sonda əmin olduğunu bildirib ki, Cənubi Qafqazda vəziyyətin dinc yolla inkişafının və iki ölkə arasında münasibətlərin normallaşdırılmasının yeganə mümkün yolu suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasıdır. O, dünya birliyini bu istiqamətdə səyləri davam etdirməyə çağırıb.

# Məhərrəm İbrahimovun və Sirac Abışovun adları vəzifə borcunu yerinə yetirərkən həlak olan jurnalistlərin siyahısına daxil edilib

"Sərhədsiz Reportyorlar" təşkilatı 2021-ci ildə vəzifə borcunu yerinə yetirərkən həlak olan jurnalistlərin siyahısını açıqlayıb.



AZƏRTAC xəbər verir ki, bu il iyunun 4-də Kəlbəcər rayonu ərazisində minaya düşərək şəhid olan jurnalistlər - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun adları vəzifə borcunu yerinə yetirərkən həlak olan jurnalistlərin siyahısına daxil edilib.

Hesabatda il ərzində 38 jurnalistin vəzifə borcunu yerinə yetirərkən öldürüldüyü əksini tapıb.

Xatırladaq ki, Məhərrəm İbrahimov və Sirac Abışov bu il iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində media nümayəndələrini daşıyan nəqliyyat vasitəsinin erməni terrorçularının basdırdıqları tank əleyhinə minaya düşərək partlaması nəticəsində həlak olublar.

Məhərrəm İbrahimov və Sirac Abışov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif ediliblər.

# Ermənilər böyük qorxu və xaos içərisindədirlər:

## *"İlham Əliyev və Ordusu bizə yeni cəza verəcək"*

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi gözləndiyi bir vaxtda düşmən təxribatı üzündən silahlar yenidən işə düşüb. Bir neçə gündür ki, Azərbaycan və Ermənistan sərhədində, eləcə də Qarabağda vəziyyət gərgindir.

Ermənistan mediasına, sosial şəbəkələrin erməni istifadəçilərinin statuslarına nəzər saldıqda bəlli olur ki, Azərbaycan Ordusunun gücünün nümayiş etdirildiyi son hadisələrdən sonra qarşı tərəfdə ciddi narahatlıq yaranıb, xaos hökm sürür. İrəvanda xalq Azərbaycanın, onun lideri İlham Əliyevin gücündən təşvişə düşüb.

### İrəvanın cəhdləri fiaskoya uğradı

İrəvandakı Regional Tədqiqatlar Mərkəzinin direktoru Riçard Giraqosyanın sözlərinə görə, son eskalasiya və ara-sıra baş verən toqquşmalar dövlət başçıları arasındakı diplomatiyanın ən yüksək səviyyəsində müsbət irəliləyiş əlamətləri ilə yerli səviyyədə baş verən hadisələr arasında əlaqənin pozulduğunu aşkara çıxarır:

"Daha geniş kontekstdə diqqəti çəkən odur ki, bu son gərginliyin nə Qarabağ məsələsi, nə də Rusiya sülhməramlılarının mövcudluğu ilə birbaşa əlaqəsi var. Əksinə, gərginlik Ermənistanla Azərbaycan arasındadır və müharibədən sonrakı qarşıdurmanın ikitərəfli ölçüyə keçməsi ilə yeni problem yaradır".

Sərhəddə baş verənlərdən sonra Zəngəzurun Noravan kəndinin icra nümayəndəsi Slavik Papyan isə Azərbaycan hərbi birləşmələrinin kəndə doğru 2 kilometr irəlilədiyinə dair məlumat verib. Eyni zamanda vurğulanır ki, Ermənistan tərəfi 11 döyüş mövqeyini itirib. Rəsmi İrəvan isə hələlik 4 döyüş mövqeyini itirdiyini etiraf edib.

Hadisələrdən dərhal sonra İrəvan Moskvanı 1997-ci ildə imzalanmış ikitərəfli müqaviləyə uyğun olaraq Ermənistanın suveren ərazisini müdafiə etməyə çağırıb. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan məsələ ilə bağlı qeyd edib: "Ermənistanın suveren ərazisinə hücum olduğu üçün biz 1997-ci il ikitərəfli müqaviləsi çərçivəsində və qarşılıqlı öhdəliklər məntiqinə uyğun olaraq Ermənistanın ərazi bütövlüyünü qorumaq çağırışı ilə Rusiyaya müraciət edirik".

Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) və ATƏT-in Minsk qrupuna da müraciət edib. Lakin bu dəfə də İrəvanın cəhdləri fiaskoya uğrayıb. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının mətbuat katibi Vladimir Zaynetdinov məsələ ilə bağlı bildirib: "Hesab edirik ki, münaqişə yalnız sülh, siyasi və diplomatik yollarla həll edilməlidir. KTMT vəziyyəti diqqətlə izləyir. Rəsmi olaraq katibliyə Ermənistan tərəfdən heç bir müraciət daxil olmayıb".

### "İlham Əliyevin qarşısını kəsmək çox çətin olacaq"

Erməni siyasi şərhçi Aleksandr İskəndəryan vəziyyətin indi Ermənistan üçün arzuolunmaz olduğunu deyir. O bildirir ki, hazırda Ermənistan Azərbaycanın 1990-cı illərdə düşdüyü vəziyyətdədir, gücünü itirib və Azərbaycan da bacardıqca çox üstünlük əldə etməyə çalışır: "Hazırda gücünü itirmiş Ermənistanda bundan sonra nə etmək barədə siyasi qüvvələr arasında fikir ayrılığı var. Azərbaycan çalışır ki, nə mümkündür qoparsın. Son hadisələrdən sonra İlham Əliyevin qarşısını kəsmək çox çətin olacaq. Ermənistanda isə hakimiyyət çalışır ki, Azərbaycanla qarşıdurmanın qarşısını müvəqqəti olsa da alsın. Müxalifət isə hesab edir ki, hakimiyyət yararsızdır. Bəzi qüvvələr hesab edirlər ki, Ermənistan gözləmə rejiminə keçib özünə gələnə qədər gözləməlidir. Vəziyyət heç də qənaətbəxş deyil, amma müharibədən sonra başqa nə gözləmək olardı ki?!" Ekspert bildirir ki, Azərbaycanın əsas məqsədi Türkiyəyə quru yolu, başqa sözlə, Naxçıvana kommunikasiya xətti əldə etməkdir. Buna da nail olacaq.

Digər siyasi erməni ekspert Anna Abrahamyan "Teleqram" kanalında vurğulayıb ki, hakimiyyət xalqı yenidən birləşməyə çağırır. Bilmirəm, kim birləşməyə çağırır. Amma onu deyə bilərəm ki, bundan sonra birləşməyə ehtiyac yoxdur. Buna heç həvəsim də qalmayıb: "Müharibədir, birləşməliyik" kimi şüarlarla baş-qulağımızı apardığınız bəsdir. Artıq unudun belə sözləri. Bir il əvvəl də belə idi. Nə oldu nəticəsi? Biz onlarla birləşdik və Qarabağı itirdik. Sonra birləşdik ki, bizi saxtakarlıqla döysünlər, polislə qapımızın ağzını kəsərək, bizi cəbhəyə aparsınlar. Bu hakimiyyət nə qədər qalsa, biz o qədər itirəcəyik. Bunu niyə başa düşməməliyik ki?! Anlamasaq, onların sahibləri bizi daha çox yeyəcək. Yəni hazırda mənim üçün bir gündəm var, mənim edəcəyim başqa bir gündəm yoxdur. Mənim onların əmri ilə heç bir əlaqəm yoxdur və bu inamdan bir millimetr də geri çəkilmək fikrim yoxdur".

### "Zəngəzuru artıq unuda bilərik"

Samvel Xaçatryan adlı "Feysbuk" istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana inamı artıq tamam tükənib: "Atam ehtiyatda olan hərbi zabitdir. Qeyd edir ki, Zəngəzuru artıq unuda bilərik. Həmin bölgəyə çağırıblar, gizlənib getmir. Deyir ki, Paşinyan Ermənistan üçün nə edib? Qarabağ savaşında lazımsız itkilər verdik. Rəhbərlik müharibə adı ilə ciblərini doldurdu. Gənclərin bu gün Zəngəzurda səbəbsiz ölümündə birbaşa təqsirkardırlar. Əsgər valideynləri, övladlarınızın boş yerə ölməsinə etiraz edin".

"Tviter" sosial şəbəkəsində sərhəddə baş verən qarşıdurma barədə rəy bildirən Qriqori Simonyan adlı istifadəçi isə yazır: "Çox təəssüf hissi keçirirəm. Qarabağda ağır məğlubiyyətə uğradıq, susduq. Çünki bizə başqa ölkənin torpağı lazım deyildi. İndi isə öz ərazilərimizi itirməyə başlamışıq. Ayılmaq lazımdır, Azərbaycan Ordusu İrəvana doğru irəliləyir".

### "Bizi xoş günlər gözləmir"

Araik Qriqoryan adlı "Odnoklasniki" sosial şəbəkə istifadəçisi isə yazır ki, hansı günümüzə Azərbaycana müqavimət göstəririk:

"Qarabağda müharibədəki qələbədən sonra Azərbaycan Ordusu daha da gücləndirilib. Hərbçi dostum deyir ki, şəxsi heyəti durmadan məşq edir, texnikalar sınaqdan keçirilir, taktikalar hazırlayırlar. Son qarşıdurmada isə yaxşı silahlara malik olduqlarını göstərdilər. Dostum bildirir ki, biz son hadisələrdən sonra daha çox narahatıq. Əvvəllər gün ərzində müşahidələr aparırdıqsa, indi hər saat izləyirik. İlham Əliyev və Ordusu bizə yeni cəza verəcək".

Avrik Stepanyan adlı biri isə "Paşinyan bizə parlaq gələcək yox, parlaq ölüm verir" başlıqlı "tvit" atıb: "Açıq reallıq budur. Sərhəddəki son hadisələr heç də ürəkaçan deyil. Müharibədə uduzan ölkə üçün bu nəyə lazımdır? Bizi xoş günlər gözləmir. Sərhəddəki son təxribatların cavabı ağır olacaq. Qardaşım Simon sərhəddə xidmət edir. Dünən mesaj atdı ki, vəziyyət yaxşı deyil. Qorxurlar, hər an ölümlə üz-üzədirlər. Bizim baş nazirimiz isə nə edəcək? Həmişəki kimi seyrçi mövqeyində qalacaq".

### "İlham Əliyevin növbəti qələbə çıxışları Şuşada yox, Zəngəzurda olacaq"

Edvard Karapetyanın "İnstaqram"da sərhəddə son qarşıdurma ilə bağlı paylaşıma şərh yazaraq qeyd edib: "Dostlar, acı olsa da, reallığı Azərbaycanın Qarabağ müharibəsindəki qələbəsində gördük. Zəngəzur dəhlizinin açılmasının gündəmdə olduğu bir vaxtda bu heç də yaxşı deyil. Belə davam etsələr, İlham Əliyevin növbəti qələbə çıxışları Şuşada yox, Zəngəzurda olacaq. Ordumuz qorxaq, rüşvətxor hərbçilərlə doludur".

Henrix Qalstukyan adlı istifadəçi xəbər agentliyinin "Teleqram" kanalında sərhəddə baş verən qarşıdurma ilə bağlı paylaşıma daha bədbin şərh verib: "Ermənistan rəhbərliyi ölüb, ağlayanı yoxdur. İtkilərimizi izlədim, dəhşətə gəldim. Xəbəriniz varmı ki, İlham Əliyev yavaş-yavaş İrəvana doğru irəliləyir? Məni qınasanız da deyəcəm: Övladlarıma, mənə müharibə lazım deyil. Paşinyan da Sarkisyanın tayıdır. Xalqını, dövlətini yeni müharibəyə, ölüm-itimli günlərə sürükləyir. Qarabağdakı məğlubiyyət sənə dərs olmadı? Gör, biz kim üçün günlərlə küçədə etirazlar keçirmişik".

Yuxarıda qeyd etdiyimiz statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Göründüyü kimi, sülh müqaviləsinin imzalanmasının müzakirə edildiyi bir dönəmdə sərhəddə yaşanan son qarşıdurmadan qorxuya düşən ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Strateji valyuta ehtiyatları 5,4 faiz artıb



"Azərbaycanın həm xarici ticarəti, həm də tədiyə balansı profisitlidir. İlin yekunlarına görə, cari hesabda ümumi daxili məhsulun 8 faiz səviyyəsində profisit gözlənilir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Mərkəzi Bankın sədri Elman Rüstəmov 2022-ci il dövlət büdcəsinin müzakirəsi ilə bağlı parlamentin noyabrın 16-da keçirilən iclasında deyib. Bildirib ki, nəticədə strateji valyuta ehtiyatları cari ilin ötən dövründə 5,4 faiz artaraq 53,5 milyard dollara çatıb.

## 2200 qaziyə əlillik və müvafiq sosial ödənişlər təyin edilib

Vətən müharibəsində yaralanmış qazilərin əlillik vəziyyətinin qiymətləndirilməsi xüsusi diqqətdə saxlanır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi aidiyyəti qurumlarla birgə bu istiqamətdə ardıcıl işlər aparır. Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əyani müayinəsi keçirilməklə, əlilliyinin qiymətləndirilməsi üçün sənədləşdirmə işləri yerinə yetirilir.

Bunun üçün ilk mərhələdə Müdafiə və Ədliyyə nazirlikləri, Daxili Qoşunlar və Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyalarından şəhadətnamə (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsini müəyyən edən sənəd) və tibb müəssisələrindən göndərişlər (forma 88) elektron sistemə daxil edilir.

Bu sənədləşmənin çevik təşkili aparıldıqdan sonra Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi əlilliyin qiymətləndirilməsini həyata keçirir.

Ötən dövrdə Vətən müharibəsinin artıq 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem tərəfindən proaktiv qaydada onlara müvafiq sosial ödənişlər təyin olunub.

## ARDNŞ-nin istiqrazları üzrə üçtərəfli marketmeyker müqaviləsi bağlanılıb

2021-ci il noyabrın 1-də Bakı Fond Birjasında (BFB) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tədavül müddəti 5 təqvim ili olan 100 milyon ABŞ dolları həcmində, faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazlarının yerləşdirilməsi üzrə hərrac yekunlaşmışdır.

Noyabrın 2-də isə ARDNŞ-nin istiqrazları BFB-nin ticarət platforması vasitəsilə təkrar bazarına start verilmişdir. 16 noyabr 2021-ci il tarixdən həmin istiqrazların anderrayteri olmuş "PSG Kapital İnvestisiya Şirkəti" QSC həm də istiqrazların təkrar bazarda ARDNŞ tərəfindən təyin olunmuş marketmeykeri olmaqla onların BFB-də təkrar bazarda likvidliyini təmin edir.

Dövlət Neft Şirkəti birja üzvü olan "PSG Kapital İnvestisiya Şirkəti" QSC vasitəsi ilə istiqrazlar üzrə təkrar bazarda gündəlik olaraq alış və satış öhdəliyi götürmüşdür. İnvestorlar tərəfindən təkrar bazarda satışa çıxarılan istiqrazlar tam həcmdə BFB-nin ticarət reqlamentinə uyğun birja üzvünün təqdim etdiyi kotirovkalar vasitəsi ilə ARDNŞ tərəfindən təmin olunacaq.

## Regionun neft ixracı arteriyası



22 il əvvəl BTC-nin marşrutunu müəyyən edən sənəd imzalanmışdır

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında möhtəşəm layihə - Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri qarşısında "yaşıl işıq" yandıran vacib bir saziş imzalandı. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.

BTC əsas ixrac neft kəmərinin tarixində həlledici rol oynayan həmin mühüm sənədi Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri imzaladılar. Bu, xam neftin BTC vasitəsilə Azərbaycanın, Gürcüstanın və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Bu sazişin imzalanması "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi.

Məlum olduğu kimi, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Ona görə də "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi çərçivəsində çıxarılan nefti dünya bazarlarına nəql etmək üçün boru kəmərləri çəkilməli idi. 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri istifadəyə verildi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və böyük maliyyə vəsaiti hesabına reallaşdı. Tikintinin müvəffəqiyyətlə başa çatdırılması bir daha göstərdi ki, Azərbaycan böyük işlər görməyə, həm də onları qısa müddətdə həyata keçirməyə qadirdir.

Bakı-Supsa kəməri ilk dəfə Xəzər dənizi ilə Qara dənizi "birləşdirdi". Bu, Azərbaycanda yeni, daha qlobal layihələrə imza atmaq məqsədi və inamı yaradırdı. Zaman özü da məhz belə layihələrin gerçəkləşməsini tələb edirdi. Yəni BTC-nin tikilməsi zərurəti "Əsrin müqaviləsi"nin real nəticələr verməsindən irəli gəlirdi. 1997-ci ilin noyabrında "Çıraq" platformasından ilkin neft alınmışdı. Qarşıda "Azəri", "Dərinsulu Günəşli" yataqlarının işlənməsi dayanırdı və hasilatın ildən-ilə artacağı yəqin idi. Fəaliyyətdə olan Bakı-Novorossiysk və Bakı-Supsa ixrac sistemlərinin gücü isə getdikcə artan neft həcmlərini nəql etmək üçün kifayət deyildi. Odur ki, Ümummilli Lider Heydər Əliyev hələ keçən əsrin 90-cı illərinin ortalarında özünün uzaqgörən qərarını vermişdi. Bu, BTC-nin tikilməsi idi.

2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC barədə demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Kəmər istifadəyə verilərkən layihənin tərəfdaşları ona Ulu Öndər Heydər Əliyevin adının verilməsi təklifini irəli sürdülər və bu təşəbbüs yekdilliklə bəyənildi. BTC 15 ildən çoxdur Azərbaycan neftini dünya bazarlarına ahəngdar və təhlükəsiz şəkildə nəql edərək bu adı şərəflə daşıyır.

Yeri gəlmişkən, qeyd edək ki, hazırda BTC Ko.-nun səhmdarları bp (30,10 faiz), AzBTC (25 faiz), MOL(8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz) "Eni" (5 faiz) "Total" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir.

BTC haqlı olaraq regionda enerji ixracının başlıca arteriyası sayılır. Mühüm strateji obyekt kimi dəyərləndirilən bu boru kəməri qapalı Xəzər hövzəsi və bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqədir.

Uzunluğu 1768 kilometr olan kəmər 2006-cı ilin ortalarında istismara veriləndən bu ilin üçüncü rübünün sonunadək ümumilikdə təqribən 495 milyon tondan çox (3,71 milyard barel) xam neft nəql edib. Bu neft həcmləri Ceyhanda 4863 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Hazırda BTC əsasən AÇG-dən hasil olunan nefti və "Şahdəniz"dən çıxarılan kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstanın da nefti nəql olunur.

Ötən illər ərzində BTC təkcə Azərbaycanın deyil, bütün regionun xeyir-bərəkət mənbəyinə çevrilib. Lakin onun əhəmiyyəti təkcə bununla bitmir. Qədim neft diyarı Azərbaycanın bu gün həm də qaz hasil və ixrac edən ölkə kimi şöhrəti artdıqca BTC daha böyük önəm kəsb edir. "Şahdəniz" qazını Türkiyəyə nəql edən Bakı-Tbilisi-Ərzurum kəmərinin Azərbaycandan və Gürcüstandan keçən hissəsi - Cənubi Qafqaz Boru Kəməri BTC ilə bir dəhliz boyu çəkilib. Xəzərin sahilindən başlanan bu yollar artıq Adriatik dənizinin altından keçərək İtaliya torpağına çatıb. Başqa sözlə, Azərbaycanda hasil olunan karbohidrogenlərin ixrac marşrutları şaxələnir və bu yolların başlanğıcında dayanan məhz BTC-dir.

Beləliklə, 22 il əvvəl Ulu Öndər Heydər Əliyev uzun bir yola nur saçacaq böyük bir layihənin başlanğıcını qoydu. Prezident İlham Əliyev bu başlanğıcı inamla davam etdirərək, bu təməli səylə möhkəmləndirərək daha qlobal layihələrin təşəbbüsünü irəli sürdü və onları uğurla gerçəkləşdirdi. O layihələr ki, ölkəmizin iqtisadi qüdrətini və siyasi nüfuzunu gündən-günə artırır, regionun və Avropanın enerji təhlükəsizliyində sanballı rol oynayır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ötən ay ölkədə 447,8 kiloqram gümüş istehsalı qeydə alınıb

Oktyabr ayında mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növlərindən sayılan qiymətli metal filizlərinin 447,8 kiloqramı gümüşün payına düşüb.

AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu göstərici əvvəlki ayla müqayisədə 65,8 kiloqram çox olub. Noyabrın 1-nə olan vəziyyətə əsasən, hazır gümüş ehtiyatı 244,3 kiloqram təşkil edib.

## KOBİA ilə Pakistanın sahibkarlıq sahəsində əməkdaşlıq imkanları müzakirə edilib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Pakistan Biznes Forumunun prezidenti, Beynəlxalq Biznes-Forumun (IBF) İdarə Heyətinin üzvü Məhəmməd Kasif ilə görüşüb.

Görüşdə agentliyin KOB-lara göstərdiyi xidmətlər, o cümlədən xarici iş adamlarına və investorlara dəstəyi barədə məlumat verilib, KOBİA ilə Pakistanın sahibkarlıq sahəsində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Görüşdə Bakıda keçirilmiş XXV Beynəlxalq Biznes-Forumda Pakistan iş adamlarının da iştirak etdiyi və bunun yerli KOB-larla əməkdaşlıq üçün yaxşı fürsət olduğu vurğulanıb.

## Azərbaycan neftinin qiyməti 84 dollara yaxınlaşır



Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,97 dollar artaraq 83,90 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti oktyabrın 25-də (88,19) qeydə alınmışdı.

## 1100-dən çox şəhid ailəsi üzvü və qazi işlə təmin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında başladılan "Məşğulluq marafonu"na bu günədək 579 işəgötürən (o cümlədən 306-sı dövlət, 273-ü özəl) qoşularaq 3472 vakansiya təqdim edib.

"Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında keçirilən marafonun məqsədi Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək verməkdir.

Marafona təqdim edilən vakansiyalar üzrə həmin kateqoriyalardan olan artıq 1103 nəfər (171 şəhid ailəsi üzvü və 932 qazi) işlə təmin olunub. Hazırda vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

"Məşğulluq marafonu"na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.

**◆ Reportaj**











## Emal müəssisəsi pambıqçının yanında olanda

Hər tərəfdə qızğın iş gedir. Fermerlər tərəfindən lafet qoşquları ilə gətirilən pambıq laboratoriyada müayinədən keçdikdən, yəni nəmliyi, təmizliyi müəyyən edildikdən sonra içəri buraxılaraq böyükhəcmli elektron tərəzidə çəkilib tayaların yanına göndərilir. Burada boşaldılan məhsul transportyorlarla tayalara qaldırılır. Orada isə fəhlələr onu yayıb sahmana salırlar.

Bax beləcə, ağ tayalar yaranır. Tayalara vurulan pambığın qızışmaması, lazımi temperaturda saxlanılması zavoddakı mühəndis və texnoloqların işidir. Bunun üçün hər tayada havatənzimləyici qurğular quraşdırılmışdır. Ümumiyyətlə, pambıq emalı müəssisəsində iş konveyer üsulu ilə təşkil olunub. Tayalara vurulan pambıq növbə ilə talvarlara daşınır, burada sovurma qurğularına yönəldilir. Borularla öncə qurutmaya, sonra böyük barabana ötürülür. Qazla işləyən barabanda qurudulan pambıq sexə göndərilir. Sexdəki qurğuların vasitəsilə pambığın lifləri çiyidlərindən ayrılır. Təmiz pambıq daha sonra presləmə, yəni kipləmə sexinə gedir. Bu sex isə müəssisənin ən məsuliyyətli bölməsidir. Texniki təhlükəsizlik qaydaları ilə əlaqədar həmin sexdə 4 növbədə çalışan işçilərin hər birinə işə başlamazdan əvvəl mükəmməl biliklər verilir, müvafiq təlim keçilir. Presləmə sexində öz işini yaxşı bilən Məhəmməd Quliyev, Nəriman Həsənov, Aqşin Qafarov, Gülər İsgəndərova və onlarca digər qabaqcıl işçilər var. Pres qurğusundan çıxan kiplər səliqəli şəkildə ağ bezlərə bükülüb ucları tikilir, tərəzidə çəkilir, üzərinə çəkisi və bir sıra başqa göstəricilərdən ibarət möhürbənd vurulur, sonra da hazır məhsulların saxlandığı anbara göndərilir.

Söhbət "MKT-Neftçala" filialından gedir. Cari mövsümdə filialda 3 min tondan çox mahlıc istehsal edilmişdir. Keyfiyyəti yüksək olduğundan xarici ölkələrin şirkətləri, xüsusilə qardaş Türkiyədən gələn iş adamları bu məhsulu məmnuniyyətlə alırlar. Biz müəssisədə olanda bu ölkədən gəlmiş bir neçə "TIR" mahlıcla yüklənib yola salındı. Mahlıc çıxımına gəldikdə isə bu göstərici də yüksəkdir - 43 faiz. Yəni 1 ton xam pambıqdan çiyid, lint və pufdan başqa, 430 kiloqram təmiz mahlıc əldə edilir. Qeyd etmək lazımdır ki, belə yüksək göstərici heç sovetlər zamanında olmamışdır. Bu isə ilk növbədə fermerlərin, torpaq mülkiyyətçilərinin, habelə dövlətin son illər pambıqçılığa göstərdiyi diqqət və qayğının nəticəsidir.

Hazırda Azərbaycanda pambıq istehsalı, tədarükü və emalı ilə məşğul olan bir neçə şirkət fəaliyyət göstərir. Rəqabət mühiti şəraitində onların hər biri fermerə daha yaxın olmağa çalışırlar. Bunu "MKT-Neftçala" filialının timsalında daha aydın görmək olur. Cari ilin əvvəlində filial 1140 nəfər mülkiyyətçi ilə müqavilə bağlamışdır. Fermerlər 4 min 869 hektarda pambıq əkmişlər. Şumdan tutmuş becərməyə qədər filial həmişə onların yanında olmuş, toxum, gübrə, herbisid, pedsidid, texnika və s. ilə kömək göstərmişdir. Bununla bərabər, "MKT-Neftçala" filialının mütəxəssisləri və sahə aqronomları gündəlik olaraq sahibkarlarla görüşüb tövsiyələrini vermişlər. Nəticədə bütün aqrotexniki tədbirlər vaxtında həyata keçirilmiş, 6 dəfə kompleks becərmə aparılmışdır.

Fermer İmadəddin Dadaşov söhbət zamanı belə dedi:

- Sağ olsun dövlətimiz, kənd təsərrüfatına böyük qayğıkeşlik göstərir. Biz pambıqçılar üçün hər bir şərait yaradılıb. Müqavilə bağladığım "MKT-Neftçala" filialının direktoru Bahəddin Leysanov, habelə filialın digər işçiləri bizə yaxından kömək göstərirlər. Əkin suyu sarıdan bu il müəyyən çətinliklərlə qarşılaşsaq da, bir an belə dayanıb durmadıq. Çalışıb dişimizlə-dırnağımızla yaranan boşluğu doldurduq. Cərgələrarası kultivasiyaya çox üstünlük verdik. Havaların hədsiz isti keçməsinə baxmayaraq, sovka da bu il nədənsə çox oldu. Düzdür, apardığımız mübarizə tədbirləri nəticəsində onun kökünü kəsdik, amma bahalı preparatlardan istifadə etdiyimiz üçün xərcimiz çox çıxdı. Bunlar isə yekunda məhsulun maya dəyərinə təsirsiz ötüşmür, onun baha başa gəlməsinə səbəb olur. Onu da demək istəyirəm ki, pambığın qiyməti bu il hər kiloqrama görə 5 qəpik artırıldı. Ancaq nəzərə almaq lazımdır ki, yanacağın qiymətinin artması aparılan əkin, becərmə, yığım qiymətlərinə təsir etmişdir. Əlaqədar təşkilatlardan xahiş edirik ki, bunu nəzərə alsınlar. Elə etsinlər ki, kəndli 90-cı illərdə olduğu kimi, pambıqdan bir daha üz döndərməsin. Axı pambıq digər bitkilər üçün də yaxşı sələfdir, torpağı xəstəliklərdən qoruyur, növbəli əkin şəraitində başqa bitkilərin də məhsuldarlığına müsbət təsir edir.

İmadəddin Dadaşovla yanaşı, Ağamirzə Mustafayev, İlqar Həsənov, Mürsəl Qafarov, Əfsər Əhmədov da cari pambıq mövsümündə hər hektardan 40-45 sentner məhsul götürməyə nail olmuşlar. Belə qabaqcıl, təcrübəli mülkiyyətçilərin hesabına filial hazırda öz nailiyyətlərinə görə respublikamızda birinci yerdədir. İndiyə qədər sahələrdən 16 min tona yaxın pambıq tədarük edilib. Mütəxəssislərin dediyinə görə, tarlalardan bundan sonra daha bir neçə min ton da məhsul yığılması gözlənilir. Yaxşı haldır ki, hər kəs yetişdirdiyi pambığı maşınlarla yığmağa çalışır. Bunun nəticəsidir ki, əldə edilən ümumi məhsulun 88,5 faizi maşınların payına düşür.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## DOST könüllülərinin təcrübəsini qazaxıstanlı həmkarları öyrənirlər

Azərbaycanda könüllülük sahəsində təcrübəni öyrənmək üçün ölkəmizə səfərə gəlmiş Qazaxıstan könüllüləri ölkəmizdə könüllülük hərəkatının aktiv iştirakçılarından olan DOST könüllüləri ilə görüşüblər.

4 saylı Bakı DOST Mərkəzi ilə tanış olan qazaxıstanlı könüllülərə Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin fəaliyyəti, eləcə də "Könüllü DOST" proqramı haqqında məlumat verilib.

Bildirilib ki, 2019-cu ilin may ayından fəaliyyətə başlayan DOST mərkəzlərində hazırda 200 gənc könüllü çalışır. Bununla yanaşı, ilk dəfə olaraq yaşlı insanların asudə vaxtının səmərəli keçirilməsi məqsədilə "Gümüşü DOST" proqramı da icra olunur. Könüllülər əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində xidmətlərdən istifadə edən vətəndaşlara mərkəzlərdə kömək edir, onlara zəruri sənədlərin hazırlanmasında dəstək olur, həssas qruplardan olan şəxslərə qayğı göstərirlər.

Qazaxıstan könüllüləri "Könüllü DOST"larla birlikdə DOST mərkəzində xidmət göstərərək təcrübə mübadiləsi də aparıblar. Qrupun koordinatoru Aygerim Jarılqasova bu səfərin təcrübə mübadiləsi baxımından əhəmiyyətini xüsusi vurğulayıb və bu sahədə bundan sonra da qarşılıqlı əməkdaşlığın vacibliyini qeyd edib.

Sonda xatirə şəkli çəkilib, qonaqlara hədiyyələr təqdim olunub.

Səfər Qazaxıstan Milli Könüllülər Şəbəkəsi ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqının bu sahədə təcrübə mübadiləsi proqramı əsasında həyata keçirilir.

## Azərbaycan və İsrail aqrar tədqiqatlar və kadr hazırlığı sahəsində əməkdaşlığı genişləndirəcək

Azərbaycan kənd təsərrüfatı mütəxəssislərindən ibarət nümayəndə heyətinin İsrailə səfəri davam edir. Səfər çərçivəsində Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimovla İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı aqrar tədqiqatlar sahəsində əməkdaşlığın genişləndirilməsi, kadr hazırlığı, aqrar təhsil sahəsində əməkdaşlıq, universitetlər arasında tələbə və müəllim mübadiləsi, ticarət dövriyyəsinin artırılması məsələləri müzakirə olunub. Tərəflər Azərbaycan və İsrail şirkətlərinin kənd təsərrüfatı üzrə ixtisaslaşmış sərgilərdə qarşılıqlı iştirakı barədə də fikir mübadiləsi aparıblar. Bildirilib ki, İsrail şirkətləri "Caspian Agro" Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində iştirakda maraqlıdır və gələn ildən bu sərgidə daha geniş tərkibdə iştirak edəcəklər.

Nümayəndə heyəti səfər çərçivəsində "Volcani Center" Aqrar Tədqiqatlar Mərkəzində olub. Mərkəzdə keçirilən görüş zamanı iki ölkənin aqrar tədqiqatlar sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib, aqrar məlumatlar bazasının formalaşdırılması ətrafında fikir mübadiləsi aparılıb. Nümayəndə heyəti üçün keçirilən təqdimatda mərkəzin fəaliyyəti, bitkiçilik, heyvandarlıq, bitki mühafizəsi, torpaqşünaslıq sahəsində tədqiqat istiqamətləri barədə geniş məlumat verilib. Görüşdə "Volcani Center" Aqrar Tədqiqatlar Mərkəzi ilə Azərbaycanın müvafiq elmi tədqiqat institutları arasında toxumçuluq sahəsində əməkdaşlığın genişləndirilməsi və kadr mübadiləsi barədə razılaşma əldə olunub.

Heyət üzvləri həmçinin İsrailin müasir suvarma sistemlərinin istehsalı üzrə ixtisaslaşmış "Netafim" şirkətinin, müasir heyvandarlıq kompleksinin, toxumçuluq müəssisəsinin, südçülük kompleksinin fəaliyyəti ilə tanış olub, yerli şirkətlərin nümayəndələri ilə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Azərbaycan heyətinə Kənd Təsərrüfatı Nazirliyinin və ölkənin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri daxildir. Nümayəndə heyəti dünən Tel-Əvivdə keçirilmiş İsrail-Azərbaycan Kənd Təsərrüfatı Biznes - Forumunda iştirak edib. Forum çərçivəsində Azərbaycan və İsrail şirkətləri arasında kənd təsərrüfatının müxtəlif sahələri üzrə əməkdaşlıq etmək barədə ikitərəfli razılaşmalar əldə olunub.

# “Səngər gündəliyi”nin müəllifi



“İki sahil” qəzetinin baş redaktorunun müavini, Vətən müharibəsinin iştirakçısı, ehtiyatda olan kapitan Anar Miriyev ötən ilin bu günlərini xatırlayır



**Müharibənin bütün dəhşətlərini yazmaq onu yaşamaq qədər çətindir: qulaqbatırıcı tank, top, raket atəşləri, səngər döyüşləri, dostluq, səninlə yan-yana uzanıb düşməni gözdən uzaq qoymayan yoldaşının bir neçə dəqiqə və ya saniyədən sonra yaralanması, yaxud şəhid olması...**

**Bütün bunlar müharibədə, döyüşlərdə hər dəqiqə səni gözləyən hadisələrdir. Zəfərimizin salnaməsini yazanların özlərinin də ön cəbhədə düşmənə layiq olduğu cavabı verənlərin arasında olmasında qeyri-adi bir şey yoxdur. Lakin onları digər döyüşçü dostlarından - əsgər, səngər yoldaşlarından fərqləndirən cəhətlər var ki, o da qələm və söz sahibi olmalarıdır. Axı müharibədən sonra Zəfər tarixini günbəgün qələmə alan da onlardır: “səngər gündəliyi”nin müəllifləri...**

### Dastana çevriləcək Zəfərə doğru irəli, Azərbaycan əsgəri!



Onu neçə illərdir ki, həmkarımız, yaxşı qələmi olan jurnalist kimi tanıyırıq. Müxtəlif mövzularda qələmə aldıqları yazılar geniş oxucu auditoriyası yaradıb. Ötən il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi həmkarımızın vətənpərvər zabit olduğunu da üzə çıxardı. Beləliklə, imzası oxuculara yaxşı tanış olan jurnalist Anar Miriyevin döyüş yollarının izinə düşdük. Ötən ilin son günü ön cəbhədən qayıdan kapitan Anar Miriyev düşmənin məkrli, çirkin niyyətinin necə puça çıxarıldığını, döyüş gündəliyini qələmə alır və tarixləşdirir. O, əslində, bununla, ilk növbədə, yenilməz ordumuzun qazandığı Zəfərin necə əldə edilməsini gələcək nəsillərə yadigar qalsın deyə yazır.

...44 günlük dastanın ikinci günü - 28 sentyabr 2020-ci ildə Anar Miriyev redaksiyada müharibə ilə bağlı yazıları redaktə edərkən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhərinin Səbail Rayon İdarəsindən gələn zəngə cavab verdikdən sonra xəyalında ön cəbhəni canlandırdı. Onsuz da illərdir ki, o, erməni vandalizminin çirkin siyasətindən yazırdı. İki gün idi ki, başlayan Vətən müharibəsindən gələn xəbərlərlə bağlı həyəcanlı olsa da, tezliklə dastana çevriləcək Zəfərin salnaməsini yazanların qalibiyyət bayrağını Şuşaya sancmaqlarına da inanırdı.

Sentyabrın 29-da o, ön cəbhəyə yola düşdü. Bu dəfə qələmi ilə deyil, odsaçan silahla düşmən üzərinə gedirdi. Odlu-alovlu yolu 30 ilə yaxın müddətdə tapdaqda inləyən və cəsur oğulları imdada səsləyən, işğaldan azad edilməsini gözləyən Qarabağa idi. Bu yol həm şərəfli, həm də çətin idi. Burada ləngimək, axsamaq, geri qalmaq olmazdı...

Məqsəd bu idi: ancaq irəli! Çünki irəlidə ana Vətənin qanla yoğrulan torpaqları onları gözləyirdi...

Ehtiyatda olan kapitan o günlərin, az qala, hər anını belə yaddaşına yazıb. Deyir ki, döyüşlərlə bağlı o qədər danışılası, qələmə alınası xatirələri var ki: “Vətənimizin işğalda qalmış torpaqlarının azad olunması uğrunda başlanan və cəmi 44 gün davam edən müharibədə ancaq bir məqsəd var idi: ərazi bütövlüyümüz bərpa edilməlidir! Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini kimi hərbçilərin mənəvi, psixoloji hazırlığı, döyüş ruhunun yüksəldilməsi işinə birbaşa cavabdeh idim. Həmin vaxt şəxsi heyətlə iş zamanı müşahidə edib görürdüm ki, istər səfərbərlikdən cəlb olunanlar, istər cəbhəyə könüllü yazılanlar, istərsə də orada həqiqi hərbi xidmətdə olan əsgərlər olsun, hamısında eyni yüksək mənəvi-psixoloji hazırlıq var. Hamı vətənpərvərlik ruhu ilə döyüşürdü. Bir amal uğrunda birləşmişdik. Orada elə bir əsgər yox idi ki, nədənsə qorxsun, çəkinsin. Bütün əsgərlərimizin, zabitlərimizin bir amalı var idi: Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad olunması. Orada xüsusən onu müşahidə etdim ki, şanlı ordumuzun Müzəffər Ali Baş Komandanı İlham Əliyevə olan inamı çox yüksəkdir...”

### “Səngər gündəliyi”ndən...

“Səngər gündəliyi”nə yazdıqlarından öyrənirik ki, xidmət etdiyi bölükdən 3 şəhid veriblər. Bölükdə 10 nəfərdən çoxu yaralanıb, qaziyə çevriliblər: “...Düşmənin üzərinə hücum edib, mövqelərini ələ keçirəndə, yaxud onlara yaxınlaşanda silahlarını yerə atıb qaçdıqlarını görmək bilirsiniz nə demək idi?! Düşmən anlayırdı ki, bu torpaq onların deyil. Ona görə də silah-sursatlarını qoyub qaçırdılar. Cənab Prezidentin dediyi kimi, onların öz səngərlərini, silahlarını özlərinə qarşı istifadə etdik, fakt göz qarşısındadır: Bakıdakı Hərbi Qənimətlər Parkında sərgilənən Ermənistan ordusuna məxsus sıradan çıxarılmış texnika, silah-sursat bunun nümunələridir...”

Xocavənd istiqamətində gedən qanlı döyüşlərdə iştirak edən kapitan o ərazilərin coğrafi və relyef baxımından çox sərt yer olduğunu da deyir. Belə yerlərdə döyüşmək, əlbəttə, çox çətin olur. Xocavənddə gedən qızğın döyüşlərdə iştirak edən kapitanın da bir neçə kəndin işğaldan azad edilməsində xidməti olur. Bu da, təbii ki, onun üçün qürurvericidir. Ağdam işğaldan azad olunduqdan sonra onların bölüyü də həmin əraziyə keçir.

Əsasən Xocavənd və Ağdam istiqamətindəki döyüşlərin iştirakçısı olan həmsöhbətim onu da gizlətmir ki, ailəsi onun birbaşa ön cəbhəyə, qaynar nöqtəyə getdiyi üçün ilk günlər çox narahat olub. Axı 2 azyaşlı uşağı evdə qoyub getmişdi...

Anar Miriyev döyüşlər zamanı gördüklərini, yaşadıqlarını sözlə ifadə etməkdə çətinlik çəkir. Ona görə də o, cəbhə gündəliyini tezliklə oxucuların ixtiyarına verməyə tələsir. O dəhşətləri yaşamaq, odun-alovun içindən keçmək və sonradan onları qələmə almaq o qədər də asan deyil. Gərək ən kiçik detalı belə unutmayasan. Axı həmin məqamda elə hadisə olub ki, onu yazmalısan, oxutmalısan, gələcək nəsillərə çatdırmalısan ki, torpaqlarımızı necə işğaldan azad etmişik: “...Çiyin-çiyinə səngərdə dayandığın döyüş yoldaşının gözlərinin qarşısında döyüşə-döyüşə şəhid olması çox ağır mənzərədir. Yaralı əsgər yoldaşını döyüş zonasından çıxarmaq, səngərə gətirmək, onun yaşamasına çalışmaq... Budur müharibə! Budur Vətən qarşısında olan borcunun yerinə yetirilməsi! Oradakı bütün əsgərlər bir-birilərinə dəstək idilər. Bu anların hamısını görmək, yaşamaq çox ağır idi. Gəncənin, Tərtərin, Bərdənin düşmən terroruna məruz qalması ilə bağlı bizə də məlumatlar çatırdı. Bu xəbərlər şəxsi heyəti çox qəzəbləndirir, intiqam hissini daha da alovlandırırdı. Biz bütün şəhidlərimizin, Gəncə, Tərtər, Bərdə terrorunun qurbanlarının qisasını döyüş meydanlarında birə-on qat alırdıq. Yadımdadır, Gəncə terroru ilə bağlı məlumat gələndə çox qəzəblənmişdik. Həmin vaxt minamyotların mərmilərinin üzərinə “Gəncənin qisası” yazıb zərbə endirirdik. Bununla da erməni terrorunun qurbanlarının intiqamını alırdıq... Beləliklə, düşmənə qarşı vuruşan igidlərlə çiyin-çiyinə oldum!”

Keçdiyi döyüş yolunda göstərdiyi şücaətə və əzmkarlığa görə, Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə “Xocavəndin işğaldan azad olunması uğrunda” medalına layiq görülən kapitan Anar Miriyev hərbi hissənin komandiri tərəfindən də fəxri fərmanla təltif olunub...

### “Əsgərə məktub”...

Anar Miriyev döyüşlərə yollananda arxada daha çox gözü yollara dikilən 9 və 7 yaşlı Kamranla Kamal olub. Amma onlar qələmi ilə tanınan atalarının bu dəfə silahla düşmən üstünə şığıyan qartala döndüyünü də bilirdilər. Ona görə onunla fəxr etdiklərini deyirlər.

Dünənki döyüşçü komandir, bugünkü jurnalist xatirələrinin bir neçəsini bizimlə bölüşür: “44 günlük Vətən müharibəsində Azərbaycanın necə güclü, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik ordusunun olduğunun şahidiyəm. Müstəqillik illərində doğulan və heç vaxt Qarabağı görməyən igid oğullarımız Vətən, torpaq üçün ölümün üstünə göz qırpmadan gedirdilər. Onları ruhlandıran həm də Müzəffər Ali Baş Komandanın döyüşən ordunun daim yanında olması, qələbə xəbərlərini hər gün xalqa, o cümlədən dünyaya və ön cəbhədə olanlara çatdırması idi. Digəri isə arxa cəbhənin bizə maddi-mənəvi dəstəyi, xüsusən də “Əsgərə məktub”lar idi. Məktublar müxtəlif ünvanlardan gəlsələr də, eyni məzmunlu idilər. Onların birini ata-ana, qardaş-bacı, nişanlı-istəkli, digərini ömür-gün yoldaşı və balalar yazırdılar. Məktəblilər, tələbələr, ön cəbhəyə can atanlardan da məktublar və sovqatlar gəlirdi ki, bu da Qələbəyə aparan yolumuzu açırdı.

Yadımdadır, bizim səngərlə düşmənin mövqeyi arasında təxminən 300-400 metr məsafə vardı. Həmin ərazi isə tamamilə minalanmışdı. Bölüyümüz həmin ərazidən hücuma keçməli idi. Hərbi hissənin mühəndis-istehkam bölüyünün zabit və əsgərləri bizim olduğumuz əraziyə gəldilər. Gecə saat 2-dən sonra həmin əsgərlər əraziyə girərək minaları tapmağa, onları çıxarıb hücum üçün xüsusi bir cığır açmağa başladılar. Təsəvvür edirsinizmi ki, düşmənə bu qədər yaxın məsafədə ərazini minalardan təmizləmək nə qədər çətin və təhlükəlidir?!

Biz isə səngərdə mövqe tutaraq, nəfəs dərmədən, göz qırpmadan, əlimiz tətikdə gözləyirdik. Hər an düşmən minalı ərazini təmizləyən qrupu görə bilərdi. Biz o zaman atəş dəstəyi verməli idik. Vaxt gedir, hamı gərgin vəziyyətdə gözləyirdi. Birdən gördüm ki, həmin ərazidən bir əsgər yaxınlaşır. Çatan kimi dedi:

- Komandir, əlimdəkini hara qoyum?

Sorusdum ki, nədir?!

- Dedi: Tank əleyhinə mina!

### Unudulmazlar - canından və qanından keçənlər

Təsəvvür edin: əsgər qorxmadan tank əleyhinə minanı əlində gətirirdi. Belə əsgəri olan ordu basılardımı? Əlbəttə ki, yox! İlk dəfə idi tank əleyhinə mina görürdüm. Həmin qrup ərazidə hücum üçün lazım olan cığırı açdı və bölüyümüz oradan irəlilədi. Düşmənin həmin mövqeyi darmadağın edildi. Minaları ərazidən təmizləyən həmin qrupun üzvlərinin yarısından çoxu 19-21 yaşlı gənclərimiz idi. Onlar minaları çox peşəkarlıqla təmizləyirdilər?! Təbii ki, peşəkar zabitlərin rəhbərliyi və təlimatları ilə bu işi görürdülər. Bizim əsgərlərimiz belə cəsur, igid, qorxmaz idilər. Bu da Qələbə üçün çox vacib amillərdəndir...”

Kapitan Anar Miriyev deyir ki, onları ruhlandıran Müzəffər Ali Baş Komandan İlham Əliyevin illərdən bəri gözlənilən əmri idi. O əmr ki, onun hesabına erməni vandalizminə son qoyulub, mənəviyyat beşiyi olan Şuşamız işğaldan azad edilib. İndi azad edilən ərazilərdə bərpa və yenidənqurma işləri genişlənir. Bu günlərdə Füzuli Beynəlxalq Hava Limanının açılışı olub. Qardaş Türkiyə Cümhuriyyətinin başçısı Rəcəb Tayyib Ərdoğan bu təntənəli açılışda iştirak edib...

Anar Miriyev deyir ki, müharibə həm də ölüm-itim, qan-qada deməkdir. Bütün uğurlarımıza sevindiyimiz kimi, itirdiklərimizə də, əlbəttə, kədərlənirik. Şəhidlərimiz Vətən uğrunda canlarından keçdilər. Onlar Zəfərimizin bayraqdarlarından biri kimi bu gözəl, firavan günlərimizi də görməli idilər. Haqqında söz açılan bölükdən İlqar Əhmədov, Eşqin Gülməmmədov və Qoşqar Üzeyirov kimi cəsurlar Vətən, torpaq uğrunda canlarından keçib - şəhidlik məqamına ucalıb, gizir Hacızadə isə ayağının birini itirərək qazi kimi geri dönüb.

*Ən mühüm məqamlardan biri də odur ki, multikultural xalq olduğumuzu ön cəbhədə də təsdiqlədik. Düşmənə qarşı amansız olanların arasında müxtəlif xalqların nümayəndələri də az deyildilər, lap elə milliyyətcə rus olan Dima Markov kimi. Cəbrayılda və Şuşada döyüşən Dima İctimai TV-də çalışır. Belə vətənpərvərlərimizlə fəxr edirik.*

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Qəhrəmanlıq tale qismətidir



**Haqqında kifayət qədər yazılmayan, döyüş yolları izlənilməyən neçə-neçə qəhrəmanlarımız var ki, onlardan biri də mayor Əfqan Qaraxan oğlu Hüseynovdur. 24 fevral 1963-cü ildə Bakı şəhərində fəhlə ailəsində anadan olub. 1970-ci ildə 109 saylı orta məktəbə gedib.**

1980-ci ildə C.Naxçıvanski adına hərbi təmayüllü orta internat məktəbində təhsilini başa vurduqdan sonra Bakı Ümumqoşun Komandirləri Məktəbinə qəbul olunub və taqım komandirinin müavini təyin edilib. 1984-cü ildə SSRİ müdafiə nazirinin əmrinə əsasən, leytenant hərbi rütbəsi alan Əfqan Hüseynov 11 oktyabr 1985-ci ildən 25 iyun 1987-ci ilə kimi Əfqanıstan Demokratik Respublikasında gedən döyüşlərə qatılıb və ağır yaralanıb. Onun döyüş xidməti yüksək qiymətləndirilib - “Qırmızı ulduz” ordeni ilə təltif edilib.

1986-cı ildə baş leytenant rütbəsi verilən Əfqan Hüseynov 1988-ci ildə göstərdiyi nümunəvi xidmətlərə görə, “SSRİ Hərbi Silahlı Qüvvələrinin yaranmasının 70 illik “medalı ilə təltif edilib. 1988-ci ildə C.Naxçıvanski adına Bakı hərbi təmayülli məktəbdə bölük komandiri təyin olunanda kapitan hərbi rütbəsini alıb.

Yüksək hərbi biliyə malik bir zabit olduğu nəzərə alınaraq Hüseynov Əfqan Qaraxan oğlu 2 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyində döyüş hazırlığı üzrə baş zabit vəzifəsinə təyin edilib. 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikası Milli Qvardiyasının yaranması ilə əlaqədar təşkili işlərə cəlb olunub. Burada qulluq etdiyi müddət ərzində bacarıqlı zabit kimi daim fərqlənib.

Milli Qvardiyanın şəxsi heyəti erməni təcavüzkarlarına qarşı gedən döyüş əməliyyatlarında da uğurla iştirak edib. 1992-ci ilin iyun ayında Füzuli bölgəsində yaranan ağır vəziyyət zamanı Milli Qvardiyanın şəxsi heyəti xüsusi fəallıq göstərib. Oranın bacarıqlı zabitləri və şəxsi heyəti, o cümlədən Əfqan Hüseynov döyüşə girərək erməni hərbi birləşmələrinə zərbə endirərək düşmənn hücumunun qarşısını alıb, onları geri oturdub. Bu döyüşlərdən sonra kapitan Əfqan Hüseynov mayor hərbi rütbəsinə layiq görülüb.

Gündən-günə mətinləşən, yüksək döyüş hazırlığına yiyələnən Milli Qvardiyanın nəzdində yeni alay yaranması məsləhət görüləndə Əfqan Hüseynov da diqqətdən kənarda qalmadı. Həmin alayın ilk komandiri də Əfqanıstan müharibəsində böyük döyüş təcrübəsi keçmiş mayor Ə.Hüseynov təyin edilib.

Cəbhə bölgəsindəki acınacaqlı vəziyyət yeni yaranmış alayın şəxsi heyətinin tam komplektləşdirilməsinə imkan verməyib. Qubadlı, Laçın bölgələrindəki vəziyyətlə əlaqədar alayın şəxsi heyəti, başda komandir Əfqan Hüseynov olmaqla, ön cəbhəyə göndərilib. Alay komandiri ilə birlikdə şəxsi heyət bu bölgədə düşmənlə üzbəüz döyüşərək, hücumun qarşısını alıb. 31 oktyabr 1992-ci ildə alay əks-hücumla düşmənin bir çox mövqelərini ələ keçirib, əsas qüvvəsini məhv edib, öz döyüş mövqelərini möhkəmləndirib.

Bu döyüşlərdə alay komandiri mayor Əfqan Hüseynov xüsusi fədakarlıq göstərib. Təəssüf ki, bu, alay komandirinin son döyüşü olub. 1 noyabr 1992-ci ildə alayın düşmən üzərinə yeni hücumu zamanı başından güllə yarası alan komandir şəhidlik zirvəsinə ucalıb. Şəhidlər xiyabanı şəhid komandirin də son ünvanına çevrilib.

Mayor Hüseynov Əfqan Qaraxan oğlunun igidliyi, qorxmazlığı, cəsurluğu Milli Qvardiyanın zabit və əsgərlərini ruhlandırıb. Sonrakı əməliyyatlarda onun kimi igidlərin intiqamını almaq arzusu ilə ağır döyüşlərə girərək, itkilər versələr də, neçə-neçə igidimizin qanını, qisasını düşməndən artıqlaması ilə alıblar.

Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin 9 mart 1995-ci il tarixli əmri ilə mayor Əfqan Hüseynov Milli Qvardiyanın şəxsi heyətinin siyahısına salınıb. C.Naxçıvanski adına liseydə və Xüsusi Dövlət Mühafizə Xidməti Milli Qvardiyada onun büstləri qoyulub.

Ailəli idi, bir qız yadigarı qalıb. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli fərmanı ilə Əfqan Qaraxan oğlu Hüseynov ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülüb. Ruhu şad olsun ki, illərlə işğalda qalan, uğrunda canlarını və qanlarını əsirgəmədikləri ana torpaq, Qarabağımız azadlığına qovuşub!

***Leyla HƏSƏNOVA***

# Qələbəmiz Azərbaycan tarixində əbədi qalacaq

**12 iyul 2020-ci il tarixdə Azərbaycan xalqı on iki şəhid verdi. On iki parça vətən daşı düşdü, həmin on iki parça yandırdı bizi. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və 10 hərbçimiz Qaraqaya yüksəkliyində qəhrəmancasına həlak oldu. Bütün millətimizi kədər boğdu. Hər kəs şəhidlərimiz üçün ayağa qalxdı. Hər gün minlərlə gənc könüllülər sırasına yazılıb ədalət uğrunda, Vətən uğrunda döyüşə hazır olduğunu bildirdi.**



Ermənistanın təxribatlarına cavab olaraq Prezident İlham Əliyevin komandanlığı ilə 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsində qısa müddətdə Füzuli şəhəri daxil olmaqla, rayonun 62 yaşayış məntəqəsi işğaldan azad edildi. Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri olub. Bu əməliyyat sayəsində, həmçinin Cəbrayıl və Xocavənd rayonunun bir sıra yaşayış məntəqələri Azərbaycan Ordusu tərəfindən azad edilmişdir.

Füzuli şəhəri və rayonun böyük hissəsi 23 avqust 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 5 yanvar 1994-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hücumu nəticəsində rayonun 22 yaşayış məntəqəsi düşməndən təmizlənmişdir. O zaman işğaldan azad olunmuş ərazilərdə hazırda rayon əhalisinin 50 faizə qədəri yaşayırdı. Ermənistanın silahlı qüvvələri ilə mübarizədə rayon sakinlərindən 400 nəfərədək müharibə əlili, 657 nəfər şəhid olmuşdur, 181 nəfər əsir və itkin düşmüşdür.

Füzuli rayonunda işğaldan əvvəl 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri mövcud olmuşdur. İşğaldan öncə isə Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngin bir ərazi idi. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, Əhmədalılar kəndində Orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrin Cəlil türbəsini aid etmək olar. Vətən müharibəsinin gedişində Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri şanlı ordumuz tərəfindən oktyabrın 17-də işğaldan azad edilmişdir.

Vətən həsrətinə son qoyuldu. 17 oktyabr nəinki füzulililərin xatirəsində, Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. İnsanlar öz doğma torpaqlarına qayıdacaqlar. Həyatdan getmiş on minlərlə qaçqın və köçkünlərimizin ruhu isə şad olacaqdır.

Füzuli uğrunda aparılmış döyüşlər Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən olmuşdur. Çox böyük peşəkarlıq, məharət, şücaət və fədakarlıq tələb etmiş bu döyüşlər haqqında kitablar yazılacaqdır. 30 il ərzində düşmən təmas xəttində möhkəm istehkam qurmuşdu, bəziləri hesab edirdi ki, Füzuli şəhərini azad etmək mümkün deyil. Amma mümkünsüzü mümkün etdi Azərbaycan Ordusu.

Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması Azərbaycana strateji üstünlüklər verdi. Baxmayaraq ki, namərd, xain düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur və bunun nəticəsində azyaşlı uşaqlar həlak olurdu, Azərbaycan Ordusu bu əməllərin qisasını mülki vətəndaşlardan almırdı. Biz döyüş meydanında qisasımızı almışıq və həlak olanların qanı yerdə qalmayıb.

Füzuli uğrunda döyüşlərdə müzəffər ordumuzun şücaəti qarşısında düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur.

2020-ci il noyabrın 26-da “Füzulinin azad olunmasına görə” medalı təsis edildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25167 hərbi qulluqçusu “Füzulinin azad olunmasına görə” medalına layiq görülmüşdür. Bu sırada mənim də adımın olması, əlbəttə, sevindirici idi.

2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna gəldilər. Ali Baş Komandan İlham Əliyev Füzuli şəhərində Azərbaycan bayrağını qaldırdı. Sonra Füzuli-Şuşa avtomobil yolunun - “Zəfər yolu”nun təməli qoyuldu.

Qələbəmiz şanlı, ədalətli qələbədir. Azərbaycan xalqının əzəli və tarixi yurdları təxminən 30 ildən sonra azad edildi, uzunillik Vətən həsrətinə son qoyuldu. Döyüş meydanında göstərdiyimiz gücün mənbəyi Azərbaycan xalqının iradəsidir. Düşmən və bütün dünya artıq Azərbaycanın gücünü görüb və bunu etiraf edib. Qələbəni görən və bu hissləri yaşayan xalq xoşbəxtdir.

***Ağasəf ABDULLAYEV,***
***Vətən müharibəsi iştirakçısı***

# Lənkəranda şəhidlərin xatirəsinə daha bir abidə açılmışdır

Rayonun Girdəni kəndində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinə tikilmiş abidə-kompleksinin açılış mərasimi keçirilib. Mərasimdə şəhər rəhbərliyi, şəhid ailə üzvləri, Qarabağ qaziləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirdə çıxış edən ŞİH-in başçısı Taleh Qaraşov bildirib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli ordumuzun erməni işğalçılarını darmadağın etdiyi 44 günlük Vətən müharibəsinin qələbə ilə başa çatmasından bir il ötür. Bu qanlı-qadalı müharibədə qəhrəmancasına vuruşaraq düşmənə sarsıdıcı zərbələr vuran igidlərimiz arasında lənkəranlı gənclərin də xüsusi yer tutduğunu vurğulayan natiq onların bir çoxunun vətən torpaqlarının işğaldan azad olunması yolunda həyatlarını qurban verib şəhidlik zirvəsinə yetişdiklərini, bir çoxlarının isə yaralanıb qazi olduqlarını bildirib. Lənkəranda Vətən müharibəsi şəhidlərinə və qazilərə böyük ehtiramın bəslənildiyini, xatirələrinin əbədiləşdirilməsi məqsədilə adlarına bulaqların tikildiyini, xatirə lövhələrinin vurulduğunu, ad və anım günləri ilə bağlı tədbirlərin, mərasimlərin keçirildiyini diqqətə çatdıran T.Qaraşov onların vətən qarşısında xidmətlərinin əbədi xatirə kimi bundan sonra da daim yaşayacağını, hər zaman gənc nəslə örnək olacağını söyləyib.

Sonra şəhid anası Bəyimağa Ağayeva, Girdəni kənd Ağsaqqallar Şurasının sədri Məmmədxan Kərimov və Girdəni kənd sakini Namik Bağırov çıxış edərək Vətən müharibəsi şəhidlərinin qəhrəmanlığını yüksək dəyərləndirib və onların xatirəsinin əbədiləşdirilməsi sahəsində görülən davamlı işlərə görə ölkə Prezidentinə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

***“Azərbaycan”***

# ADA Universitetinin ABŞ-dakı mərkəzində caz, azadlıq və müstəqillik mövzusunda tədbir keçirilib





ADA Universitetinin ABŞ-dakı mərkəzinin və Azərbaycan-Amerika Musiqi Fondunun birgə təşkilatçılığı ilə "Uliyam Konnover, Vaqif Mustafazadə, Frederik Starr: Caz, azadlıq və müstəqillik" mövzusunda tədbir təşkil olunub.



Universitetdən AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində ADA-nın ABŞ-dakı mərkəzində "Uliyam Konnover və Vaqif Mustafazadə caz saatı" mövzusunda fotosərginin açılış mərasimi baş tutub. Sərginin açılışından sonra tarixi "Whittemore House"da ziyafət və konfrans keçirilib. Burada ADA Universitetinin əməkdaşlıq etdiyi universitetlərin dekanları, professor və müəllimləri, dövlət və ictimai xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ADA Universitetinin ABŞ-dakı mərkəzinin prezidenti Qalib Məmməd cazın ölkəmizdəki zəngin və tarixi köklərini bir daha yada salıb, caz musiqisinin xalqlarımız arasında körpü qurduğunu nəzərə çatdırıb. O, cazın Azərbaycandakı tolerant fikir tərzinin simvollarından biri olduğunu vurğulayıb.

Tədbirdə Vaqif Mustafazadənin yaradıcılığına nəzər salınıb, "Amerikanın Səsi" radiosunda caz verilişlərinin aparıcısı Uliyam Konnoverin onun barəsində təşkil etdiyi verilişlərdən fikirlər səsləndirilib.

Sonra ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Azərbaycan Respublikasının müstəqillik illərində keçdiyi yollardan və qazandığı zəfərlərdən bəhs edib.

Rektor Hafiz Paşayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif edilən Azərbaycanın müstəqilliyinin dəstəkçisi, Mərkəzi Asiya və Qafqaz İnstitutunun sədri və caz ifaçısı Frederik Stara ordeni şəxsən təqdim edib. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında çoxşaxəli əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə ordenlə təltif edilən Frederik Star Prezident Əliyevə minnətdarlığını bildirib, Azərbaycanın bölgədəki geostrateji əhəmiyyətindən danışıb.

Tədbirdə eyni zamanda Ağ Evin Milli Təhlükəsizlik Şurasının Avropa və Avrasiya üzrə sabiq direktoru Deyvid Merkel, Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim, Şimali Texas Universitetinin tədqiqatçısı Maristella Fyustl və Azərbaycan-Amerika Musiqi Fondunun icraçı direktoru Cəmilə Spitzberq çıxış ediblər.

Tədbir Amina Fiqarovanın rəhbərlik etdiyi caz orkestrinin ifasında konsertlə başa çatıb. Konsertdə ölməz sənətkar Vaqif Mustafazadənin və Qərb caz əfsanələrinin musiqi kompozisiyaları səsləndirilib.

Qeyd edək ki, "Uliyam Konnover və Vaqif Mustafazadə caz saatı" sərgisi gələn il fevralın 28-dək davam edəcək.

# Zəfərin humanizm səhifəsi

Əvvəli 1-ci səh.



Son 18 ildə Prezident 35 əfv sərəncamı imzalayıb. Milli həmrəyliyə istiqamətlənmiş bu humanist addımlar ümumilikdə indiyədək 10 minə yaxın şəxsi əhatə edib. 2003-2021-ci illər ərzində Azərbaycanda həm də 4 dəfə amnistiya elan edilib.

Ümumilikdə müstəqillik dövründə Azərbaycanda 11 aministiya aktı, 67 əfv sərəncamı imzalanıb. Əfv olunanların sayı 5672, amnistiyaya düşənlərin sayı 40412 nəfər olub. Yəni əfv və amnistiya aktları ümumilikdə 46084 məhkuma şamil edilib.

Azərbaycanda mütəmadi olaraq həyata keçirilən amnistiya aktları, əfv sərəncamlarının imzalanması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir.

Prezident İlham Əliyevin humanizmə köklənmiş siyasəti minlərlə məhkuma insanlıq üçün ən böyük dəyər olan azadlıq bəxş edir. Həm də dövlət başçısının bu addımları törətdiyi əməldən səmimi peşmançılıq hissi keçirən günahkar şəxslərin islah olunaraq düz yola qayıtması, onların cəzaçəkmə müəssisəsindən çıxdıqdan sonra layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiya olunması, eyni zamanda bir daha cinayət əməli törətməməsi üçün tədbirlər görülməsi istiqamətində müstəsna əhəmiyyətə malikdir.

Reallıqdır ki, əfv sərəncamlarının verilməsi dövlətin üzərinə qoyulmuş bir vəzifə deyil. Amma Azərbaycan dövləti hər zaman bəşəri humanizm, insan hüquqlarına hörmət siyasəti nümayiş etdirir, sosial statusundan asılı olmayaraq hər bir vətəndaşına mərhəmət hissi ilə yanaşır.

İnsan amilinə dəyər baxımından atılan bütün bu müstəsna əhəmiyyətli addımlar onu da göstərir ki, Azərbaycan dövlətində hüquqi islahatlar da zamanın tələbinə uyğun olaraq təkmilləşdirilir.

Qələbəmizin bir ili münasibəti ilə 8 Noyabr - Zəfər Günü tarixinə həsr olunan amnisitiya aktı da həyata keçirilən humanizm siyasətinin uğurlu davamıdır. Amnistiya 5800 məhkuma, probasiya üzrə isə 8800 nəfərə şamil edilib. Bu, indiyə qədər qəbul olunmuş amnistiyalar sırasında öz əhatə dairəsinə görə ən geniş qərardır. Amnistiya aktına əsasən cəzadan azad edilmiş şəxslər müasir Azərbaycan dövlətinin layiqli vətəndaşı olacaq, qanunlara hörmət ruhunda davranaraq Vətənə və xalqa sədaqətlə xidmət edəcəklər.

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı Zəfəri xalqımızın özünə inamını, güvənini daha da artırıb, eyni zamanda Azərbaycan dövlətçiliyini daha da gücləndirib. Bu cür qürurlu bir mərhələdə Prezident İlham Əliyevin amnistiya elan etməsi Zəfər bayramı ərəfəsində xalqa böyük hədiyyə kimi dəyərləndirilir.

Dövlət başçısının çox sayda ailənin sevincinə səbəb olan bu xeyirxah əməli Azərbaycan dövlətinin sosial statusundan asılı olmayaraq bütün vətəndaşlarına diqqət və qayğısının parlaq təzahürüdür.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Dünya yenidən sərt karantin rejiminə qayıdır

## Yoluxmaların qarşısının alınması üçün görülən tədbirlərin təsiri hələ ki zəifdir



Koronavirusun "Delta" ştamının sürətlə yayılması artıq dünya ölkələrindəki mövcud epidemioloji vəziyyəti daha da gərginləşdirib. Hələ ötən ilin əvvəlində COVID-ə qarşı vaksinləşdirmə başladıqdan sonra yoluxma hallarının azalacağı ilə bağlı proqnozlar verilsə də, bu ehtimallar özünü doğrultmadı.

Yaz-yay aylarında koronavirusa yoluxma hallarının azalmasını görən bir çox ölkələr sərhədlərini xarici qonaqların üzünə açdı.

Ancaq ötən müddət ərzində həm karantin qaydalarının yumşaldılması, həm də koronavirusun daha sürətlə yayılan "Delta" ştamının yoluxma sayında üstünlüyə sahib olması yeni dalğa təhlükəsinin yaranmasına səbəb oldu. Artıq bir müddətdir ki, dünyada koronavirusa yoluxma halları ilə yanaşı, bu virusdan ölüm halları da artır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus noyabrın 12-də açıqladığı məlumatda bildirib ki, yalnız ötən həftə ərzində Avropada 2 milyona yaxın COVID-19-a yoluxma hadisəsi baş verib ki, bu da pandemiya başlayandan həmin regionda bir həftə ərzində ən çox qeydə alınan göstəricidir.

Xəstəliklərin Qarşısının Alınması və Nəzarət olunması üzrə Avropa Mərkəzi (ECDC) Hollandiya və Belçikada, eləcə də Avropa İttifaqının (Aİ) digər üzv ölkələrində koronavirusun yayılması ilə bağlı vəziyyətin "çox narahatedici" olduğunu açıqlayıb. Artımın müşahidə edilməsi səbəbindən karantin qaydalarında yüngülləşdirmə tətbiq edən bəzi Avropa ölkələri son günlər ərzində yenidən sərtləşdirməyə gedirlər. COVID pandemiyası başlayandan bəri yoluxma sayında ən yüksək həddə çatan Hollandiyada hökumət 3 həftə müddətinə qismən qapanmanın tətbiqinə qərar verib. Bu ölkə mağaza, aptek, ictimai iaşə, mədəniyyət müəssisələrinin iş saatlarını azaltmaqla yanaşı, idman oyunlarının da ən azı dekabrın 4-nə qədər tamaşaçısız oynanılmasına icazə verir. Bir ailədə bir şəxs COVID-ə yoluxmuşsa, digər ailə üzvləri peyvənd olunsalar belə, karantinə alınacaq. Hollandiya hökuməti işçilərinə mümkün qədər evdə qalmağı və evdən işləməyi tövsiyə edir.

Çin hökuməti də noyabrın 24-dək Honq Konqda karantin qaydalarını sərtləşdirdiyini açıqlayıb. Burada səyahət edənlərin əksəriyyəti üçün karantin istisnaları ləğv edilir, ictimai toplantılar dörd nəfərlə məhdudlaşır, toylar, dini mərasimlər, forumlar məkan tutumunun 50 faizində keçirilə bilər. Ancaq iştirakçıların ən azı üçdəikisi COVID-19-a qarşı peyvənd olunubsa, tədbirlərin tam gücü ilə keçirilməsinə icazə verilir. Hökumət əyləncə məkanlarının 85 faiz tutumla işləməsinə qadağa qoymur. Sakinlər bütün ictimai yerlərdə, o cümlədən nəqliyyat vasitələrində maskalardan istifadə etməlidirlər. Çin bundan sonra pandemiya ilə mübarizədə heç bir simptomu olmayan koronavirus daşıyıcılarına da xüsusi diqqət yetirəcək.

Xəstəliklərin sayının sürətlə artdığı Norveç ölkə daxilində COVID-lə mübarizə tədbirlərini sərtləşdirməyə qərar verib. Latviya, demək olar ki, bütün Avropa İttifaqına üzv dövlətlər üçün giriş qaydalarını sərtləşdirib. Bu ölkənin "Təhlükəsiz Səyahət Siyahısı"nda yalnız 3 ölkənin adı var ki, bunlar İspaniya, Malta və Vatikandır.

Azərbaycanda bu il oktyabrın 1-dən xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirlərindən sonra dövlət rəsmiləri hər hansı sərt qapanmaya gediləcəyi barədə açıqlama verməyiblər. Ölkə ərazisində ictimai nəqliyyat, o cümlədən Bakı Metropoliteni ilə həftə sonlarında sərnişin daşımasına qoyulan qadağa da oktyabrın 1-dən ləğv edilib. Həmin müddətdən müəyyən şərtlər daxilində bir çox istirahət və əyləncə məkanlarının, mədəniyyət obyektlərinin fəaliyyətinə icazə verilib. Fəaliyyəti bərpa edilən iş və xidmət sahələrinin qapalı məkanlarında göstərilən xidmətlərdən yaşı 18-dən yuxarı olan şəxslər yalnız COVID-19 pasportuna sahib olduqları halda istifadə edə bilərlər. Müəyyən səbəblərdən peyvənd oluna bilməyən şəxslər COVID-19 pasportu tələb olunan məkanlara əldə etdikləri COVID-19 infeksiyası əleyhinə peyvəndə əks - göstəriş sertifikatı ilə daxil ola bilərlər.

Oktyabrın 1-dən Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu arasında müntəzəm sərnişindaşıma istisna olmaqla, ölkənin şəhər və rayonlarından dəmir yolu nəqliyyatı və avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları (taksi minik avtomobilləri ilə sərnişin daşımaları istisna olmaqla) həyata keçirilərkən yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla, sərnişinlərdən COVID-19-a qarşı birinci doza, noyabrın 1-dən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatı tələb olunur.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, bəzi Avropa ölkələri yoluxmanın qarşısını almaq və bunun səhiyyə müəssisələrinə olan təzyiqini azaltmaq üçün yenidən məhdudiyyətlər tətbiq edirlər. Onun fikrincə, hər bir ölkə öz vəziyyətini mütəmadi olaraq qiymətləndirməli və yanaşmasını buna uyğun tənzimləməlidir. Ölkələr düzgün tədbirlər hesabına virusun bir şəxsdən digərinə ötürülməsini azalda bilərlər.

Baş direktor yoluxmaların qarşısının alınması üçün görülən tədbirlərin dəyişməz qaldığını nəzərə çatdırıb: "Testlərin edilməsini, maskaların taxılmasını, fiziki məsafənin saxlanmasını, izdihamın qarşısını almaq üçün tədbirlərin görülməsini, qapalı məkanlarda ventilyasiyanın yaxşılaşdırılmasını və s. tədbirlərin görülməsini tövsiyə etməkdə davam edirik".

ÜST rəsmisi hazırkı zamanda COVID-ə qarşı peyvənd olunmanı da olduqca vacib sayır və bildirir ki, hər bir kəs növbəsi çatan zaman peyvənd olunmalıdır. Tedros Adhanom Gebreyesus hesab edir ki, peyvəndlər xəstəxanaya yerləşdirmə, ağır xəstəlik və ölüm riskini azaldır. Lakin onlar ötürülmənin qarşısını tam ala bilmir: "Yalnız peyvənd olunma deyil, kimin peyvənd olunması da çox vacibdir. Hər gün qlobal miqyasda aşağı gəlirli ölkələrdə vurulan ilkin dozalardan altı dəfə çox "buster" dozalar vurulur. Ancaq dünyada hələ ilk dozanın vurulmasını gözləyən tibb işçiləri, yaşlı insanlar və digər yüksək riskli qruplar olduğu halda sağlam yeniyetmələrə və ya uşaqlara gücləndirici dozanın vurulması mənasızdır. Burada istisna yalnız immuniteti zəif olan şəxslərdir".

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***







Dünya gündəmi



# Dünyanı «ərzaq inflyasiyası» bürüyüb

## Qiymətlər 50 illik rekordu yeniləyib

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hesabladığı qiymət indeksi oktyabr ayında 133 bəndlik həddi aşıb. Taxıl, bitki yağı və südün qiymətləri yenə bahalaşıb.

Ərzaq məhsullarının beynəlxalq qiymətləri onillik pik nöqtəsinə yüksəlib. Oktyabr ayında ərzaq qiymətləri indeksinin orta əmsalı 133,2 bənd təşkil edib. Bu, sentyabr göstəricisindən 3 faiz çoxdur və ekspertlərin dediyi kimi, ardıcıl olaraq üçüncü aydır ki, qiymətlər artır. Sonuncu dəfə o, 2011-ci ilin iyulunda 130 bəndlik həddi aşmış, 2015-ci ildən 2020-ci ilə qədər isə bu göstərici 100-dən aşağı olub.

FAO-da qeyd ediblər ki, oktyabr ayında dənli bitkilərin qiymət indeksinin əmsalı sentyabr ayı ilə müqayisədə 3,2 faiz artıb. Bitki yağları üzrə analoji göstərici 9,6 faiz, süd məhsulları üzrə isə 2,6 faiz artıb. Ekspertlər vurğulayıblar ki, ətin qiymət indeksinin orta əmsalı 0,7 faiz, şəkərin isə 1,8 faiz aşağı düşüb,

### Problemlər dünyada emal sənayesinə təsir göstərəcək

Koronavirus pandemiyasından qurtula bilməyən dünya iqtisadiyyatı yeni şokla - ərzaq qiymətlərinin kəskin artması ilə üzləşib. Əsas ərzaq məhsullarının qiymətləri məhsul və enerji böhranı üzrə proqnozların pisləşməsi fonunda yenidən qalxır.

Hazırda dünyada qida məhsulları yarım əsrdə baş verməyən sürətlə bahalaşır. Bunu "University of Warwick" Universitetinin böyük elmi işçisi Alister Smit qeyd edir. Alimin dediyinə görə, əgər real qiymətləri nəzərə alsaq, onda dünya bazarında ərzaq almaq 1961-ci ildən, BMT-nin statistikaya başladığı vaxtdan bəri demək olar ki, istənilən illə müqayisədə daha çətindir.

Dünya taxıl ehtiyatları azalmaqda davam edir və cari ilin sonunadək 2020-ci ildəki 29,2 faizlik istehlak həcminə qarşı 28,4 faiz təşkil edəcək.

Avropanı bürümüş və kömür çatışmazlığı üzündən zavodları dayandırmağa məcbur olmuş Çinə zərbə vurmuş enerji böhranı həm yerli, həm də xarici ölkələrin fermerlərinə əlavə problemlər yaradacaq.

"Pantheon Macroeconomics" İqtisadi Tədqiqatlar Kompaniyasının Çin üzrə baş iqtisadçısı Kreyq Botem deyir: "Bu, növbəti staqflyasiya şokuna bənzəyir. Problemlər yalnız Çində deyil, bütün dünyada emal sənayesinə təsir göstərəcək".

### Dünyada aclıq edənlərin sayı kəskin artıb

Hazırda dünyada 811 milyon insan aclıqla üzləşib. Bu, bir il əvvəl olduğundan 161 milyon çoxdur. 41 milyon insan isə aclığın astanasındadır. Belə templə tezliklə aclıqdan əziyyət çəkən insanların sayı 1 milyarda çatacaq.

Qlobal aclıq indeksinin (GHI) dünya üzrə orta göstəriciləri göstərir ki, 2030-cu ilə qədər 47 ölkədə aclıq hətta aşağı səviyyədə olmayacaq, "ciddi" və ya "fövqəladə" olacaq. Bu, Almaniyanın paytaxtı Berlində ictimaiyyətə açıqlanan aclara yardım üzrə "Welthungerhilfe" Beynəlxalq Təşkilatının yeni hesabatının məlumatları ilə təsdiqlənir. Orada qlobal ərzaq çatışmazlığının artması qeydə alınıb və vəziyyətin xüsusilə kritik olduğu ölkələr sadalanıb.

### "2030-cu il üçün sıfır aclıq" - bu mümkündürmü?

Müharibələr, iqlim dəyişikliyi və koronavirus pandemiyası ac insanların sayının artmasına səbəb olur. "Welthungerhilfe"ın hesabatına əsasən, 2021-ci ildə münaqişə bölgələrində yaşayan 155 milyon insan kəskin aclıqdan zərər çəkib. Bu, 2019-cu illə müqayisədə təxminən 20 milyon insan çoxdur. Azı 30 milyon kişi, qadın və uşaqlar isə aclıqdan ölüm təhlükəsilə üzləşmişdilər. Beləliklə, hesabatda bildirilir ki, əgər bəşəriyyət indiki kimi yaşamağa davam etsə, "2030-cu ilə sıfır aclığ"ın davamlı inkişaf məqsədlərinə nail olmaq mümkün olmayacaq.

2021-ci ildə yeni qlobal aclıq indeksinin nəşri ilə əlaqədar olaraq, "Welthungerhilfe" Təşkilatı siyasətçiləri ərzaq çatışmazlığı ilə bağlı böhranlarla mübarizə aparmağa çağırıb. "Biz 2030-cu ilə qədər sıfır aclıq" kursundan kəskin şəkildə uzaqlaşdıq, çünki aclıq yenidən artır", - deyə qurumun baş katibi Matias Mogge bildirib.

BMT 2020-ci ildə adekvat qida məhsulları almayan insanların sayının 320 milyon nəfər artaraq 2,4 milyard nəfərə çatdığı barədə məlumat yayıb. "Biz aydın görürük ki, irəliləyiş ləngiyir və hətta geriyə çəkilir". Bunu ekspert Miriam Vimers qeyd edir.

### Ən pis vəziyyət Afrika və Cənubi Asiyadadır

Qlobal aclıq indeksi, qlobal səviyyədə, eləcə də region və ölkələr üzrə aclığı ölçən və izləyən bir vasitədir. Onun rəqəmləri istehlak edilən qidada kalori çatışmazlığını yaşayan insanların sayını, 5 yaşına çatmamış və inkişafdan geri qalan uşaqların sayını, habelə uşaq ölümünün səviyyəsini nəzərə alır.

İndeksə görə, aclıqdan əziyyət çəkənlərin ən böyük sayı Afrikada Saxaradan cənubda və Cənubi Asiyadadır. 100 ballıq cədvəl üzrə ən pis göstərici Somalidədir-50,8. Orada vəziyyət son dərəcə ağır kimi qiymətləndirilir. Mərkəzi Afrika Respublikasında (43), Çad Respublikasında (39,6), Konqo Demokratik Respublikasında (39), Madaqaskarda (36,3) və Yəməndə (45,1) vəziyyət çox ağırdır. FAO-nun hesabatında bildirilir ki, ərzaq təhlükəsizliyi ilə bağlı vəziyyətin pisləşməsi bu ilin avqust-noyabr aylarında dünyanın 23 rayonunda baş verə bilər və bu, 28 dövləti əhatə edir. Söhbət Əfqanıstan, Haiti, KXDR, Kolumbiya, Myanma, Nigeriya, Suriya, habelə Afrika, Yaxın Şərq və Mərkəzi Amerikanın daha bir sıra ölkələrindən gedir.

### Vəziyyətin pisləşməsinin səbəbləri

Vəziyyətin pisləşməsinə gətirib çıxaran səbəblər arasında təchizat zəncirinin pozulması və koronavirus pandemiyası ilə bağlı məhdudiyyətlər var. Bu isə istehlak qiymətlərinin artmasına və eyni zamanda istehsalçılarda qiymətlərin düşməsinə səbəb olub. Afrikanın bir çox ölkələrində pandemiyaya görə tətbiq olunan komendant saatı məhsul itkisinə gətirib çıxarıb.

"Welthungerhilfe" şirkətinin baş katibi Matias Mogge vurğulayır ki, son illərdə baş verən zorakı münaqişələr üzündən milyonlarla insan aclıq və yoxsulluq yaşayır. Müharibə gedən yerlərdə infrastruktur dağıdılıb, sahələrdən məhsul yığılmır və insanlar kəndlərdən qaçırlar.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Dahi Nizaminin əsərləri artıq rəqəmsal formatda

## "Azercell" görkəmli şairin irsini müasir audiovizual vasitələrlə canlandıracaq

Dahi şair və böyük mütəfəkkir Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə bu il Prezident İlham Əliyevin sərəncamına əsasən "Nizami Gəncəvi ili" elan edilib. Ölkənin lider mobil operatoru "Azercell Telekom" mədəniyyət tariximizdə bu əhəmiyyətli hadisəni layiqincə qeyd etmək üçün növbəti layihəsini təqdim edir.

Həm yerli, həm də xarici oxucuları Şərqin ən böyük şairinin yaradıcılığı ilə tanış etmək üçün "Azercell" Nizami əsərlərinin ən sevilən nümunələrini rəqəmsal mütaliə vasitələrilə təbliğ etmək təşəbbüsü ilə çıxış edir. Beləliklə, "Azercell"in dəstəyilə Nizaminin 40-dan çox seçilmiş fəlsəfi və lirik məzmunlu müxtəlif ölçülü əsərləri Azərbaycan, rus, ingilis, fransız və türk dillərində "Bukmete" proqramının "Audiobuk" bölməsinə yerləşdiriləcək. Audiofaylların hazırlanmasında digər bir özəl xüsusiyyət onların orijinal fon musiqiləri ilə təqdim olunmasındadır. Ud, tar, kamança və digər qədim musiqi alətlərinin müşayiəti ilə dil daşıyıcıları tərəfindən səsləndiriləcək poeziya nümunələri daha təsirli və xalqımızın mədəni irsi baxımından daha mütəşəkkil ifadə olunacaq.

"Azercell" tərəfindən daha bir maraqlı yenilik isə layihə çərçivəsində Nizami Gəncəvinin iki əsərinin: "Kərpickəsən kişinin dastanı" və "Adil Nuşirəvan ilə vəzirin hekayəti" əsərlərinə komiks janrında şəkillərin çəkilməsi və komiks toplusundan ibarət kitabın tərtib edilməsidir. Qeyd edək ki, həmin komikslər də Azərbaycan, rus və ingilis dillərinə uyğunlaşdırılacaq.

Xatırladaq ki, Nizami Gəncəvinin əsərlərindən öncə "Azercell" rəqəmsal kitabxana üçün İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə şair və filosofun seçmə qəzəllərini, "Koroğlu" dastanının 10 qolunu və müxtəlif klassik müəlliflərin əsərlərini audiokitab formatında hazırlayaraq beynəlxalq "Bukmete" tətbiqinə yükləmişdir.

Qeyd edək ki, "Azercell" abunəçiləri üçün xüsusi endirimlə təqdim olunan "Bukmete" rəqəmsal platforması vasitəsilə lider operator Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə tanıdılmasına xidmət edən layihələr gerçəkləşdirir. "Azercell"in müasir cəmiyyətin tələbatına və yaşam tərzinə uyğun formatda hazırladığı ədəbi məzmun ölkədə, xüsusilə də gənclər arasında mütaliə mədəniyyətinin inkişafı və Azərbaycanın ədəbi irsinin dünyanın istənilən nöqtəsində müxtəlif dillərdə daha əlçatan olmasına xidmət edir.

Xatırladaq ki, şairin zəngin irsinin təbliği məqsədilə "Azercell" bundan öncə Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş xüsusi əlifba da işləyib hazırlayıb. Həmin əlifba sosial şəbəkələrdə geniş yayılaraq istifadəçilər arasında populyarlıq qazanmışdır.

"Nizami Gəncəvi ili" ərzində "Azercell" şirkətinin təqdimatında audiokitab və komikslər yeni formatda təqdim olunmağa davam edəcək. "Bukmete" tətbiqinə abunə olmaq, eləcə də "Azercell Telekom"un fəaliyyətini mətbuat və sosial media platformaları üzərindən izləməklə siz də bu yeniliklərdən faydalana biləcəksiniz.

Rəqəmsal kitabxana "Bukmete" haqqında daha ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/digital-solutions/bookmate.html

# Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində kompleks məşq keçirilib

Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə bölmələrində kompleks məşq keçirilib.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, kompleks məşqə hava hücumundan müdafiə bölmələrinin bir nömrəli hazırlığa gətirilərək atəş və start mövqelərini tutması ilə başlanılıb.

Şəxsi heyətin real döyüş şəraitində düşmənin hava hücum vasitələrinə qarşı peşəkarlıqla mübarizə aparmaq vərdişlərini təkmilləşdirmək üçün kompleks məşqə ordu aviasiyası da cəlb edilib.

Plana əsasən zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə hava düşməninin zərbələrinin dəf edilməsi məşq etdirilib.

Səyyar zenit-raket komplekslərinin və zenit-artilleriya bölmələrinin heyətləri çətin hava şəraitində müxtəlif hündürlük diapazonunda fəaliyyət göstərən şərti düşmənin hava hücumu vasitələrinin hücumunun qarşısının alınması və hava hücumundan müdafiə bölmələrinin mövqeyinə soxulmağa cəhd edən şərti düşmənin yerüstü hədəflərinin məhv edilməsi tapşırıqlarını yerinə yetiriblər.

Aviasiya vasitələrinə qarşı döyüş işi üzrə təlimatın və atəş qaydalarının tələblərinə uyğun fəaliyyətlərin icra olunduğu kompleks məşqin sonunda döyüş heyətlərinin iş keyfiyyəti, manevretmə qabiliyyəti və uzlaşma səviyyəsi təhlil olunaraq qiymətləndirilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

**qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



*Təkrar*

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
## 110/35/10 kV-luq "Laçın (Qorçu)" Yarımstansiyasının tikintisi və istismara verilməsi işlərinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: LOT - 1. 110/35/10 kV-luq "Laçın (Qorçu)" Yarımstansiyasının tikintisi və istismara verilməsi işlərinin satın alınması.

İştirak haqqı - 2 000 (iki min) manat

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürməlidirlər.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

İddiaçılar iştirak haqqını köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır. Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: 598-26-96; 490-09-27, 598-05-56;

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların və yarımstansiyaların tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. - iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 dekabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **21 dekabr 2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına, Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların tender təklifləri **22 dekabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi kotirovka sorğusu həyata keçirir

LOT 2- Katriclərin alınması
LOT 3- İnventarın alınması
LOT 4- Qeyri-maddi aktivlərin alınması

Kotirovka sorğusu üzrə Əsas şərtlər toplusunu rəsmi müraciət əsasında əlaqələndirici şəxsdən əldə etmək olar. Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 02.12.2021-ci il saat 11:00-dək idarə tərəfindən qəbul ediləcək. Zərflər 02.12.2021-ci il saat 15:00-da idarənin akt zalında açılacaqdır. Kotirovka sorğusu üzrə əlaqələndirici şəxs: Nigar Bədəlova, telefon: 492-83-85 (daxili 706) baku@arxkom.gov.az

***Tender komissiyası***



*Təkrar*

## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
## 330/110/10kV-luq "Gəncə" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: LOT - 1. 330/110/10kV-luq "Gəncə" Yarımstansiyasının yenidən qurulması və istismara verilməsi işlərinin satın alınması.

**İştirak haqqı - 2 000 (iki min) manat**

**İştirak etmək istəyənlər iştirak haqlarını aşağıda qeyd olunan hesaba köçürməlidirlər.**

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz filialı**
**Kod: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

İddiaçılar iştirak haqqını köçürdükdən sonra ərizə ilə müraciət edərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanında, "Azərenerji" ASC-nin Tender və müqavilə şöbəsindən ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: 598-26-96; 490-09-27, 598-05-56;

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların və yarımstansiyaların tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların və yarımstansiyaların tikinti işləri üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları);*
- *iddiaçı şirkət Azərbaycan Respublikasının qanunlarına cavab verən lisenziyalara malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 dekabr 2021-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **21 dekabr 2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına, Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **22 dekabr 2021-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər (onlayn qaydada).

***Tender komissiyası***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## Düzəliş

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən İsmayıllı rayonu "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğunda yerləşən 5 memarlıq abidəsində bərpa işlərinin satın alınması ilə bağlı 16.11.2021-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş elanda təkliflərin qəbulu üçün müəyyən olunmuş son müddət 30 noyabr tarixi 01 dekabr, açılış tarixi 01 dekabr isə 02 dekabr kimi oxunmalıdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Əməkdar memar

**RASİM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Füzuli Əhmədov, Aydın Səttar, Rasim Abbasov Azərbaycan Respublikası Auditorlar Palatasının sədri professor Vahid Novruzova anası

**MEHRİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İslam, Rza, Mircəfər və Mircəlil İsmayılovlar, Rafiq Hüseynov, İlham və Tural İbrahimovlar ailələri ilə birlikdə Hacı Müşviq, Ramil və Elvin Hüseynov qardaşlarına ataları

**VƏLİ MİSİR OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun kollektivi Azərbaycanın tanınmış memarı və rəssamı

**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Aşıq Şəmşir" Mədəniyyət Ocağının sədri Qənbər Qurbanov Milli Məclisin deputatı, akademik Nizami Cəfərova anası

**SAVAD XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

N.Tusi adına Klinikanın kollektivi vəkil Təranə Eyubovaya atası

**ÜZEYİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2305
Qiyməti 40 qəpik